# UĞURSUZ PLAN

**BİRİNCİ CİLD**

**İslam İnqilabının Böyük Rəhbəri Həzrət Ayətullah Seyid Əli Xameneinin 2009-cu il fitnəsi haqda çıxışlarından seçmələr**

**Tərcümə edən:
Məhəmmədhüseyn Hərəndli**

# Birinci fəsil

## Onuncu prezident seçkiləri

Ölkənin daxili məsələlərindən biri də qarşıdan gələn seçkilərdir; bu barədə də danışmaq istəyirəm. Əlbəttə, seçkilərə hələ qalıb, əgər yaşasaq, lazım bildiyim sözləri əziz xalqımıza deyəcəyəm; gec deyil. İndi isə bir neçə məqama toxunmaq istəyirəm.

# Seçkilərin əhəmiyyəti

## Seçkilər İslam quruluşunun təməlidir!

Əvvəla bizim ölkəmizdə seçkilər simvolik bir hərəkət deyil. Bizim quruluşumuzun təməli bu seçkilərdir. Təməllərdən biri budur. Dini demokratiya sözlə hasil olmur. Dini demokratiya xalqın iştirakı, iradəsi, xalqın ölkənin hadisələri ilə düşüncə, ağıl və emosiya rabitəsi ilə yaranır. Bu da düzgün və ümumi bir seçkilər keçirilmədən və xalqın geniş iştirakı olmadan mümkün deyil. Bu demokratiya İran xalqının başucalığının amilidir.

Bu otuz il ərzində sizin böyük güclərin nərəsindən qorxmamanız, onların sizə əsaslı bir zərbə vura bilməməsi, ölkə gənclərinin müxtəlif sahələrdə belə şücaət və ixlas nümayiş etdirməsi dini demokratiyadan irəli gəlir. Mütləq bunun qədrini bilməliyik.

Seçkilər İran xalqının möhtəşəm sərmayə qoymasıdır. Sanki siz bankda böyük sərmayə yatırırsınız, bank onunla işləyir və siz qazancından istifadə edirsiniz. Seçkilər də belə bir şeydir. İran xalqı çoxlu sərmayə qoyur, böyük investisiya yatırır və onun qazancından bəhrələnir. Xalqın hər bir fərdinin səsi həmin sərmayə qoyuluşunda və investisiyada iştirak edir. Sizin qutuya saldığınız hər bir səs sanki investisiyanı təmin etdiyiniz pulun bir hissəsidir. Bir səs də əhəmiyyətilidir.

Seçkilər nə qədər fəal keçsə, İran xalqının müxalif və düşmənlərin qarşısındakı əzəməti daha çoxalacaq, İran xalqına daha çox hörmət edəcəklər, dünyadakı dostlarınız da sevinəcəklər. İran xalqının seçkilərdə iştirak etməsi onun əzəmətini nümayiş

etdirir. Seçkilər budur. Mən bütün seçkilərdə xalqa birinci növbədə bunu deməyə çalışıram ki, sizin seçkidə iştirak etməniz mühüm məsələdir. Bu, İslam Respublikası quruluşunu təsdiq etmək və onu gücləndirməkdir.

Məsələ yalnız siyasi, fərdi və əxlaqi bir məsələ deyil, kompleks bir məsələdir. Seçkilər xalqın taleyi ilə əlaqədardır; xüsusən də prezident seçkiləri və ölkəni bir neçə il idarə etmək üçün icra hakimiyyətini bir nəfərə və bir qrupa tapşırmaq. Seçkilər bu qədər əhəmiyyətlidir.

## Ölkənin həssas, mühüm və taleyüklü məsələsi

Seçkilər bizim ölkəmizin həssas, mühüm və taleyüklü məsələsidir; istər parlament seçkiləri, istər Dini Ekspertlər Məclisinin seçkiləri, istər xüsusən də bir neçə gündən sonra keçiriləcək prezident seçkiləri. Mən seçkilərlə bağlı bir neçə məsələ haqda danışmaq istəyirəm.

Birinci məsələ budur ki, əcnəbi radiolar xalqı ruhdan salmaq üçün iki-üç ay öncədən ölkəmizdə keçirilən seçkiləri pisləməyə və gözdən salmağa başladılar. Bəzən dedilər ki, bu, seçki deyil, təyinatdır; bəzən dedilər ki, hökumət tərəfindən idarə olunan bir oyundur və namizədlərin özləri oyun oynayırlar; müxtəlif namizədlərin bir-biri ilə fikir ayrılıqlarının olduğunu görürsünüz, amma bunların hamısı yalandır, oyundur. Bəzən dedilər ki, seçkilər mütləq saxtalaşdırılacaq. Hər dəfə bir söz dedilər. Bütün bu təxribatlarda məqsəd bir şeydir: xalq seçkilərdə fəal iştirak etməsin. Onlar bunu istəyirlər. Mənim əzizlərim! Əziz İran xalqı! Ayıq və sayıq İran xalqı! Bu otuz ildə bütün çətin keçidlərdən keçən təcrübəli İran xalqı! Bilin ki, onlar sizin demokratiyanızla müxalifdirlər.

## İran xalqının düşmənlərin gözü önündə verdiyi böyük imtahanı

Bir səs də əhəmiyyətlidir. Seçkilər nə qədər fəal keçsə, İran xalqının müxalif və

düşmənlərin gözündə əzəməti daha çoxalacaq, İran xalqına daha çox hörmət edəcəklər, dünyadakı dostlarınız da sevinəcəklər.

Seçkilər İran xalqının düşmənlərin gözü önündə verdiyi böyük imtahanlarından biridir. Buna görə bizim seçkilərimiz üzərində bu qədər həssaslıq göstərirlər. İran xalqının düşmənlərinin informasiya şəbəkələri təxminən bir il öncədən mülayim şəkildə bu seçkilərin əleyhinə danışmağa və mətləb hazırlamağa başladılar. Təhlükəsizlik şəbəkələri də informasiya toplamaqla, fərziyyə və təklif irəli sürməklə məşğul oldular. Onlar bu seçkilər üzərində həssasdırlar. Siz bu gün də İran xalqına kin və ədavət bəsləyən müxtəlif xarici media qurumlarının xəbərlərinə baxsanız, bizim seçkilərimizə laqeyd qalmadıqlarını və öz qərəzlilikərini ortaya qoyduqlarını görərsiniz.

## Milli başucalığı

Seçkilər bizim milli inkişaf göstəricilərimizdən biri və milli başucalığımıza vasitədir. İran xalqının həvəs, şüur, kamil dərk və məlumatla seçki məntəqələrinə getməsinin mənası nədir? Mənası budur ki, xalq özü üçün səsvermə hüququ və gücü tanıyır, ölkənin gələcəyində rol oynamaq, ölkənin məmurlarını və əsas idarəçilərini seçmək istəyir.

Əziz qardaş və bacılar! İslam başıuca və dinamik bir cəmiyyət yaratmaq üçün bəzi xüsusiyyətləri nəzərdə tutmuş və onlara çatmaq yolunu tarix boyu bütün müsəlman xalqlara və İslam ümmətinə izah etmişdir. Bu əlamət və xüsusiyyətlərdən biri milli başucalığıdır, izzətdir. Bir fərdin xar deyil, izzətli olmaq istədiyi kimi, bir xalqın böyük arzularından biri də izzətli olmaq və xar olmamaqdır. Milli başucalığı nədir? Milli başucalığı bir xalqın həqarət hissi keçirməməsindən ibarətdir. İzzət hissinin qarşı tərəfi həqarət hissidir. Bir xalq öz daxilinə - sərvətlərinə, tarixinə, tarixi

irslərinə, özünün insan və düşüncə potensialına baxdıqda izzət və qürur hissi keçirsin, həqarət və xarlıq duymasın. Bu, bir xalq üçün mühüm məsələlərdəndir. Quran müxtəlif yerlərdə buna işarə vurmuşdur: "Onlar: “Əgər biz Mədinəyə qayıtsaq, ən izzətlilər (münafiqlər) ən xar olanları (Peyğəmbəri və ona iman gətirənləri) mütləq oradan çıxaracaqlar!” – deyirlər. Halbuki izzət yalnız Allaha, Onun Peyğəmbərinə və möminlərə məxsusdur, lakin münafiqlər (bunu) bilməzlər!" Münafiqlər öz-özlərinə danışırlar ki, biz izzətliyik və xar olan müsəlmanları Mədinədən xaric edəcəyik. Allah Peyğəmbərə (s) vəhy etdi ki, bunlar belə deyirlər, lakin möminlərin izzətli olduğunu anlamır, bilmirlər; izzət Allaha, onun Peyğəmbərinə (s) və Allaha iman gətirənlərə məxsusdur. Bu, həmişə İslam ümmətinin gözü önündə durası parlaq bir tablodur: milli başucalığı. Əgər bir xalq başucalığı hissi keçirməsə, yəni öz sərvətlərinə, adət-ənənələrinə, dilinə, əlifbasına, tarixinə, fəxrlərinə və böyüklərinə

həqarət gözü ilə baxsa, onları kiçik saysa, özünün bir şeyi olmadığını duysa, bu xalq asanlıqla əcnəbilərin istismarı altına düşəcək.

Müstəmləkəçilər 16-17-ci əsrlərdən, Şərq, o cümlədən müsəlman torpaqlarına daxil olduqları zamandan bu xalqların əl-ayaqlarını əsarət kəməndi ilə möhkəm bağlayıb özlərinə əsir etmək üçün onları öz keçmişlərinə, sərvətlərinə, məzhəblərinə, adət-ənənələrinə və geyimlərinə qarşı bədbin etməyə başladılar. Bunlar ibarətamiz məsələlərdir. İş elə bir yerə çatdı ki, Məşrutə dövrünün əvvəllərində bu ölkədə bir ziyalı dedi ki, iranlı başdan-ayağa avropalaşmalıdır; yəni dinini, əxlaqını, geyimini, əlifbasını, keçmişini və fəxrlərini kənara qoymalı, unutmalı, Qərb mədəniyyətini, Qərbin adət-ənənələrini, təfəkkürünü və davranış tərzini qəbul etməlidir. Dinə arxa çevirənlər bizim ölkəmizdə bu rəzil sözü dedilər. Bəllidir ki, bir ölkə hər şeyini əldən verib daxilən boşaldıqda İngiltərə müstəmləkəsi onun hər bir şeyinə - neftinə, ordusuna, sərvətinə və

siyasətinə asanlıqla hakim ola bilər. Pəhləvi dövründə iş elə bir həddə çatmışdı ki, xain şah kimisə Baş nazir təyin etmək istəyəndə İngiltərənin və sonralar Amerikanın səfiri ilə söhbət etməyə, əslində isə onlardan icazə almağa məcbur idi. Bu bizim dərdli keçmişimizdir. Bu, milli başucalığının əks tərəfidir. Asılı və fəsadlı diktatorların hakimiyyəti İran xalqını izzət kürsüsündən endirdi; nə onun elmini inkişaf etdirdilər, nə dünyasını abadlaşdırdılar, hətta axirətini də alıb əyninə əsarət donu geydirdilər. İslam inqilabı belə bir vəziyyətə qarşı qiyam etdi. İslam inqilabı və Böyük İmam belə böyük bir bəlanın qarşısında dayandı və İran xalqı bu yolda canını fəda edib qələbəyə çatdı.

Bir xalqa belə bir ruhiyyə hakim olduqda o ölkənin siyasi rejimi və həmin xalq təbii olaraq kölə kimi olur; öz xalqı qarşısında yırtıcı it və qaniçən canavar kimi, düşmənlər qarşısında isə sakit bir quzu kimi. Rza xan xüsusən şahlığının ikinci yarısında öz xalqına qarşı çox kobud rəftar edirdi, xalqın nəfəs almaq cürəti yox idi, öz evləri

daxilində ata övlada və övlad ataya inanmırdı, amma ingilislərin "taxtdan en" mesajı ilə ölü bir siçan kimi hakimiyyəti buraxdı və ölkədən getdi; Məhəmmədrza Pəhləvi də həmçinin. Məhəmmədrza Pəhləvi altmış və yetmişinci illərdə bu xalqa, mübarizlərə və azadlıq istəyənlərə qarşı heç bir şeyi nəzərə almadan ən sərt və kobud təzyiqlər göstərdi, amma həmin adam Amerika və İngiltərənin səfirləri önündə təzim edir, sözlərini dinləyirdi; bundan xoşlanmırdı, amma məcbur idi. Milli başucalığından məhrum olan bir xalqın hökuməti belə olur.

İslam inqilabının İran xalqına bəxş etdiyi ən əsas məsələlərdən biri izzət hissi idi. Bizim böyük imamımız izzətin timsalı idi. İmam aşkar şəkildə "Amerika heç bir qələt eləyə bilməz" - deyəndə dünyada Amerikanın siyasi və hərbi iqtidarının zirvə dövrü idi. İmam bu xalqa izzət hissini qaytardı; inqilab İran xalqına izzət hissini qaytardı. Bu gün iranlı özünün iranlı və müsəlman olması ilə fəxr edir. Bu gün dünya

gücləri də etiraf edirlər ki, onların İran xalqına qarşı təhdidinin, hərbi və siyasi təbliğat kampaniyasının heç bir təsiri yoxdur. İran xalqı seçdiyi yolu qüdrətlə gedəcək və məqsədinə çatacaq.

Mühüm olan bu milli başucalığını qorumaqdır. Mənim qardaş və bacılarım! Əziz Kürdüstan əhalisi və böyük İran xalqı! Buna hamımız diqqət yetirək, bu milli başucalığını qoruyaq. Milli başucalığı yalnız dillə, iddia ilə və şüarla qorunmur. Əgər bu gün İran xalqı başıucadırsa, dünyanın böyük siyasi məsələlərində nüfuzu varsa, səbəbi onun imanında, əməlində, təşəbbüsçülüyündə, şücaətli hərəkətində, vəhdət və birliyindədir. Bu amillərin hansını əldən versək, bizim başucalığımız təhdid olunacaq. Əgər biz öz birliyimizi və imanımızı əldən versək, Allahın lütfü ilə bu gün bütün xalqda, xüsusən də gənc nəsildə duyulan iş və fəaliyyət həvəsini əldən versək, başucalığımızı əldən verəcəyik. Bu, siyasi hadisələrin xüsusən gənclər üçün təhlilinə dair mühüm bir məqamdır.

İmamın tövsiyələrinə, şüarlarına, xalqdan, məmurlardan və bütün dünya müsəlmanlarından etdiyi tələblərə kompleks nəzər saldıqda onun əlində iki uca bayraq görürük. Bizim böyük imamımız ölkəmizdə və İslam dünyasında yaratdığı bu əzəmətli hərəkatda həqiqətən iki bayrağı ucaltdı və yüksəkdə saxladı: bir bayraq İslamın dirçəlişi, bu əzəmətli və tükənməz gücü fəallaşdırmaq bayrağı, ikinci bayraq isə İranın və iranlının izzət və başucalığı bayrağıdır. Bizim böyük imamımız qüdrətli əlləri ilə bu iki bayrağı ucaltdı. İmamın dəvətinin və hərəkatının bir cəhətini təşkil edən birinci bayraq böyük İslam ümmətinə aiddir. İkinci bayraq da İran xalqına, İrana və iranlıya aid olsa da, İslamın həyatverici rolunun əməli təcrübəsi kimi İslam ümməti üçün ümidverici və hərəkət oyadandır. Çünki bu böyük hərəkat İranda İslam oyanışının və İslamın həyata keçməsinin əməli təcrübəsi idi. Buna əsasən, birbaş İrana və iranlıya aid olsa da, onun nəticəsi yenə də

İslam ümməti üçün dəyərli və əhəmiyyətlidir.

İkinci cəhət İranın və iranlının başucalığına aiddir. Bu ikinci hissədə bizim böyük imamımızın gördüyü ilk və ən mühüm iş həqarət hissini İran xalqında yox etmək, onların ruhundan silmək idi. Bu çox mühüm məsələdir. Bizim xalqımız 100-150 il öncədən müxtəlif amillər səbəbindən həqarət hissi keçirirdi, özünü kiçik sayırdı; Qacarlar dövründəki müharibələrdən, ağır məğlubiyyətlərdən və həmin dövrdə müxtəlif şəhərlərin itirilməsindən tutmuş Pəhləvi dövrünə, Rza xanın zamanına, heç kimə nəfəs almaq imkanı verməyən diktaturaya və xalqa qarşı zor tətbiqinə qədər, birinci Pəhləvi dövründən sonra Məhəmmədrza xanın dövrünə, amerikalıların müdaxiləsinə, SAVAK və Təhlükəsizlik komitəsinin yaradılmasına, xalqa qarşı kobud rəftara və xalqın daha heç bir gücünün qalmadığını hiss etməsinə qədər. İran xalqı bir neçə mühüm məsələdə məğlubiyyət hissi keçirdi; Məşrutə

məsələsində qələbə çaldıqdan sonra məğlubiyyətə uğradı. Milli hərəkat məsələsində yenidən möhtəşəm bir hərəkət etdi, lakin başçı və rəhbərlər onu qoruya bilmədilər və İran xalqı məğlub oldu. Sonra 1954-cü ildən 1978-ci ilə qədər sürən 24 il ərzində xalqa ağır bir diktatura rejimi hakim oldu. Xalqda daha heç bir həvəs qalmamışdı.

Digər tərəfdən, əksəri zalım hökumətin işçiləri olan qərbpərəst ziyalılar öz sözləri və əməlləri ilə xalqı başa salmışdılar ki, sizin bacarığınız yoxdur, heç bir iş bacarmırsınız, gərək digərlərini yamsılayasınız; elmdə yamsılayasınız, sənayedə yamsılayasınız, mədəniyyətdə yamsılayasınız, geyimdə yamsılayasınız, yeməkdə yamsılayasınız, danışmaqda yamsılayasınız. Hətta iş elə bir həddə çatdı ki, bir dəfə "biz əlifbamızı dəyişdirməliyik" - dedilər. Görün bir xalq müstəqillikdən və başucalığından nə qədər uzaq olmalıdır ki, kimlərsə ona "əlifbanı dəyişdirməlisən" - deməyə cürət etsin. Yəni min il elmi irsimizin yazıldığı fars əlifbasını dəyişdirib avropalıların əlifbasını götürək və

onları yamsılayaq; vəziyyət bu həddə çatmışdı. İmam gəlib bu həqarət ruhunu məhv etdi. İmam inqilabın qələbəsindən on beş il öncədən on il sonraya qədər müxtəlif formalarda bu xalqa daim özünəinam ruhu aşıladı: siz bacarırsınız, biz bacarırıq, siz qadirsiniz, siz böyüksünüz, siz güclüsünüz.

Bu milli özünəinam hər bir ölkənin inkişafının əsas iki şərtindən biridir. Bir şərt maddi imkanlardır, amma onlar təklikdə kifayət etmir. Bir xalqın böyük maddi imkanları ola, amma inkişaf və tərəqqidən uzaq qala bilər, başıuca və qüdrətli olmaya bilər. İnqilabdan öncə bizim bu neftimiz vardı, qazımız vardı, möhtəşəm və qiymətli filiz mədənlərimiz vardı, parlaq istedadlarımız və güclü insan kapitalımız vardı, amma eyni zamanda dünyada üçüncü dərəcəli, ad-sansız, böyük güclərin qapazı altında, fəsadlı, muzdur və düşmənlərdən asılı bir hökumətin boyunduruğu altında yaşayan bir xalq idik. Deməli, maddi imkanlar kifayət etmir, mənəvi şərtlər də lazımdır. Bu mənəvi şərtlərin ən

önəmlilərindən biri özünəinam, bir xalqın öz bacarığına inanmasıdır. İmam bizim xalqımızda bu inamı yaratdı ki, duruş gətirə, müqavimət göstərə, ölkəsini azad edə, özünün yaratdığı quruluşu çox qüdrətlə qoruya, dünyaya və beynəlxalq siyasətlərə təsir göstərə bilər; elə də oldu. Bu, sözügedən milli başucalığıdır. Mən iyirmi gün öncə Sənəndəcdə kürd qardaşlarımızın yanında bu haqda danışdım. Bir ölkə üçün milli başucalığı çox mühüm məsələdir. Bu milli başucalığı yalnız sözdə deyil, həyatımızın bütün sahələrində onun əməli tərcüməsi var.

Ölkə idarəçiliyində milli başucalığı budur ki, bir hökumət, bir quruluş öz xalqına arxalansın, xalqa güvənsin.

İqtisadi məsələlərdə milli başucalığı budur ki, ölkə özünü təmin etməyə qadir olsun, dünyada ehtiyacı olanı ala bilsin. Həmçinin dünyanın da ona ehtiyacı olsun və qarşılığında ondan alsın; məğlub olmasın.

Elmdə milli başucalığı budur ki, xalqın tələbə gənci, tədqiqatçısı, araşdırıcı alimi çalışıb elmin sərhədlərini keçsin və elmi

istehsal etsin. Biz bunu Proqramlaşdırma və elm istehsalı hərəkatı adlandırmışıq. Elmi bu həddə çatdıranlar orta istedad baxımından bizdən geridə olmasalar da, öndə olmamışlar. Tarixdə bizim əsrlərlə parlaq elmi keçmişimiz olub, bu gün də elmi istehsal edə bilməli, yaratmalı, kəşf etməliyik və dünya elmində əsas payımız olmalıdır. Bu olur başucalığı.

Müxtəlif siyasətlərdə, digər ölkə, hökumət və böyük güclərlə münasibətdə bir xalqın başucalığı budur ki, onun fikir müstəqilliyi olsun, böyük güclər heç bir məsələdə onu öz iradələrinə tabe etdirə bilməsinlər.

Mədəniyyət sahəsində milli başucalığı budur ki, bir xalq öz ənənələrinə sadiq olsun, dəyər göstərsin, əcnəbi və düşmən mədəniyyətlərin təqlidçisi olmasın. Təəssüf ki, bizim ölkəmiz inqilabdan qabaqkı yüz əlli il, yaxud daha artıq bir müddətdə Qərb mədəniyyətinin dağıdıcı fırtınasına məruz qaldı. Biz hələ də onun təsirlərini görür, əziyyətlərini çəkirik. Milli başucalığı budur

ki, bir xalq öz adət-ənənələrinə əhəmiyyətli yanaşsın, hörmət etsin, onlarla fəxr etsin, digərlərinin "siz mürtəcesiniz" deməsinə etina etməsin. Bu gün bəzi Avropa ölkələri elə işlər görürlər ki, onları ağıllı və normal bir insana göstərsəniz, yalnız istehzalı təbəssüm edə bilər. Biz deyirik ki, nə üçün belə edirsiniz? Deyirlər ki, bu bizim ənənəmizdir. Onlar özlərinin köhnə və çürük ənənələrinə sadiq qalırlar, digər xalqlar öz ənənələrinə hörmət edəndə isə onları ələ salırlar. Xeyr, bu özünə inamsızlıq milli başucalığı ilə müxalifdir. Milli başucalığı odur ki, bir xalq digərlərinin mədəniyyəti qarşısında özünü itirməsin. Milli başucalığı budur. Milli başucalığı həyatın bütün sahələrində əks olunur, onun nümunələri görünür.

Ölkə idarəçiliyində və insanlarla münasibətdə milli başucalığı budur ki, bir cəmiyyətdə hər bir insana hörmət olunsun: "Ya sənin din qardaşındır, ya da yaranışda oxşarın (sənin kimi insan)". Sizinlə eyni dində olsa da, hörmət etməlisən, eyni dində olmasa da. Cəmiyyətdə kim insandırsa, ona

hörmət olunmalıdır. Bu, milli başucalığı yaradır. İmam milli başucalığının bu müxtəlif cəhətlərini tövsiyə edirdi.

İslam quruluşu bu otuz ildə həmin özünəinamla işləmişdir. Düzdür, enişi-yoxuşu olmuş, yıxılıb-qalxmış, amma dayanmamışdır; xalq dayanmamışdır. Bizim xalqımızın bu başucalığı dünyada əks-səda doğurur. Mən bizim xalqımızın öz əsas və prinsiplərinə sadiqliyinə görə dünyada xar olduğunu, gözdən düşdüyünü güman edən şəxslərin sözünü qəbul etmirəm. Əsla belə deyil. Bizim düşmənimiz var. Bizim düşmənlərimiz dünyanın müdaxiləçi və hegemon güclərindən təşkil olunan vahid bir cəbhəni təşkil edirlər. Öz peykləri kimi orbitlərində saxladıqları ölkələrdən biri onların orbitindən xaric olduqda - məsələn İran ölkəsi İslam inqilabından sonra onların orbitindən xaric oldu - onunla mübarizə aparmağa, onu əzməyə və təhqir etməyə çalışırlar. İnformasiya resursları da güclüdür. Bunun mənası o deyil ki, biz öz başucalığımızı əldən verdik. Xeyr, imamın və

İran xalqının hörməti İslamın və İslam Respublikasının düşməni olan həmin şəxslərin ürəyində də özünə yer açmışdır.

İmamın söz və tövsiyələrinin yetirməsi olan bu böyük xalqımızın inkişaf və tərəqqinin zirvəsinə doğru gedən yolu bütün sahələrdə bu milli başucalığını qorumaqdan ibarətdir. Bu xalq tərəqqinin zirvəsinə nail ola bilər. Bir xalq güclənəndə, maddi və mənəvi cəhətdən yüksələndə onun təhlükəsizliyi də tam təmin olunur; yəni təhlükələr aradan qalxır və düşmənlər ona tamah salmırlar. Əgər bizim xalqımız tam təhlükəsiz olmaq, düşmənlərin daha onu təhdid etməyə cürət göstərməməsini istəyirsə, həmin yolla getməlidir; əgər inkişaf və ədalət istəyirsə, həmin yolla getməlidir. Bizim ölkəmiz üçün böyük təhlükə xalqdan ayrılmaqdır, İslam dəyərlərindən ayrılmaqdır, imamın mübarək xəttindən ayrılmaqdır. Bunlar bizim ölkəmiz üçün təhlükəlidir. Əgər inqilabın yaratdığı bu güclü skelet qorunsa, zaman ötdükcə müxtəlif problemlərin çoxunu həll etmək

olar. Bu güclü skeletin dağılmasına qoymayın. Əgər dağılsa, daha heç bir yara sağalmayacaq, işdən düşən heç bir hissə düzəlməyəcək. İslam quruluşunun imamın bizə öyrətdiyi güclü skeletinin qorumalıyıq. Mən Allaha şükür edirəm ki, bu otuz il ərzində İran xalqı və ölkə məmurları öz imkanları həddində bu yolu davam etdirə bilmişlər. Düzdür, azı-çoxu olmuşdur, yıxılıb-qalxması olmuşdur; bir dövrdə daha yaxşı olub, bir dövrdə bir qədər zəif; amma bu hərəkət bu günə qədər dayanmadan davam etmişdir. Allahın yardımı və siz xalqın, xüsusən də siz gənclərin səyi ilə bu yol son qələbəyədək davam edəcək.

**Bizim milli inkişafımızın meyarı**

Mənim əzizlərim! Bizim xalqımız bir neçə əsr boyu ölkənin idarəsində təsirsiz bir qüvvə olmuşdu. Nə üçün? Çünki diktaturanın və şah üsul-idarələrinin xüsusiyyəti belədir; xalqın heç bir rolu yoxdur. Bu zaman xalqın vəziyyəti necə olur? Bu, yuxarıda əyləşən şəxsin insafından asılıdır. Əgər xalqın bəxti

gətirsə və qəlbində bir qədər rəhmi olan bir diktator iş başında olsa, - bizim tariximizdə buna misal üçün Kərim xan Zəndin adını çəkirlər - xalqın vəziyyəti bir qədər yaxşı olacaq. Amma əgər quldur Rza xan, Nasirəddin şah və digər diktatorlar iş başında olsalar, bunlar ölkəni öz mülkləri, heç bir rolu olmayan xalqı da rəiyyətləri biləcəklər.

Tarixə baxın. Uzun əsrlərin tarixini demirəm, Məşrutə dövründən sonrakı tarixə baxın. Məşrutənin adı ölkədə yayıldı, amma Pəhləvi rejimi iş başına gələndən seçkilər tam simvolik bir hərəkətə çevrildi; milli hərəkatın qısa bir dövründən başqa. İkiillik dövrdə vəziyyət bir qədər yaxşı idi, amma onun da çoxlu problemləri vardı; məclisi tətil etdilər, məclisin ixtiyarlarını hökumətə verdilər və sair. Bunlar Müsəddiqin dövründə baş verdi. Digər dövrlərdə isə seçkilər əməlli-başlı teatr idi. Mən və mənim yaşımda olanların xatırladığı dövrdə seçkilərin əsla xalqın seçimi olmadığını hamı bilirdi. Hakim aparat – ozamankı saray bəzi şəxsləri seçirdi və

onların arasında rəqabət aparılırdı; bir-biri ilə vuruşurdular da, amma onlar istədiklərini - müti, başıaşağı olan, onların maraqlarını təmin edən, onların qanunsuz maliyyə haqqını verən adamı gətirib məclisdə oturdurdular. Xalq da özü üçün gedirdi. Bütün bu dövrün çox qısa bir dönəmində xalq səsvermədə iştirak etməli və ölkənin idarəsinə təsir göstərməli olduğunu hiss etdi. Əsla belə bir şey yox idi. Biz seçkilərin adını qəzetlərdə eşidirdik; yazırdılar ki, indi seçkilərdir, onun nə zaman keçiriləcəyini bilmirdik; xalq bilmirdi. Seçki zamanı bir yerdə bir neçə qutu qoyurdular. Özləri də bir qədər danışır, hay-küy salır, istədikləri işi görürdülər və məsələ bitirdi. Xalqın heç bir rolu yox idi.

İslam inqilabı vərəqi tamamilə çevirdi, xalqın roluna önəm verdi; yalnız parlament seçkilərində yox, prezident seçkilərində, rəhbəri seçməli olan Dini Ekspertlər Məclisinin seçkilərində, meri seçən bələdiyyələrin seçkilərində də. Bütün bu həssas mərhələlərdə xalqın fikri təyinedici

oldu, konstitusiya bu əsasla yazıldı və bu gün inqilabdan otuz il ötür. Mən sizə deyirəm ki, bu iş bu günə qədər çox qüdrətlə davam etmişdir.

İnqilabdan öncə İran əcnəbilər üçün bir otlağa çevrilmişdi. İstismarçı və hakimlər buranın neftindən, bazarından, məhsullarından, canlı qüvvəsindən - nə vardısa, hər şeydən istifadə edirdilər; bir gün İngiltərə, bir gün Amerika və sionistlər. İnqilab baş verəndə isə xalq iş başına gəldi, onların maraqları kəsildi. Odur ki, bu quruluşla düşmənlik etmələri təbiidir; otuz ildir düşmənlik edirlər.

# Törədilən əngəllər

## Seçkilərin boykot olunmasına, yaxud soyuq keçməsinə cəhd

Birinci növbədə məqsədləri seçkilərin boykot olunmasıdır; yəni seçkilər keçirilməsin. Bir zaman müxtəlif hiylələrlə İslam Şurası Məclisinin seçkilərini pozmağa çalışdılar, ancaq Allah-Taala istəmədi,

mömin insanların iradəsi qoymadı və bacarmadılar. Buna görə seçkiləri boykot etməkdən məyus oldular. Sonrakı mərhələdə məqsədləri seçkilərin zəif və soyuq keçməsidir; İran xalqının seçkilərdə fəal iştirak etməməsini istəyirlər. Əziz İran xalqı! Mən sizə deyirəm: Düşmənlərin istəyinin tam əksinə olaraq bizim hamımız seçkilərlərdə fəal iştirak etməliyik.

**Seçkiləri pisləmək və gözdən salmaq**

İnqilabdan öncə İran əcnəbilər üçün bir otlağa çevrilmişdi. İstismarçı və hakimlər buranın neftindən, bazarından, məhsullarından, canlı qüvvəsindən - nə vardısa, hər şeydən istifadə edirdilər; bir gün İngiltərə, bir gün Amerika və sionistlər. İnqilab baş verəndə isə xalq iş başına gəldi, onların maraqları kəsildi. Odur ki, bu quruluşla düşmənlik etmələri təbiidir; otuz ildir düşmənlik edirlər. Düşmənlər öz təbliğat şəbəkələrində xalqın bu dəyərli təsirini və ölkənin idarəsindəki rolunu inkar edir, yaxud görməzdən gəlirlər. Dəfələrlə

açıq söhbətlərində və kinayəli sözlərində ölkəmizin seçkilərinə irad bildirmişlər. Xeyr, bizim ölkəmizin seçkiləri demokratiya iddiası edən bu ölkələrin əksərinin seçkilərindən daha azaddır, daha izdihamlı keçir. Həm də bu seçkilərdə xalq həvəslə iştirak edir, aktiv, yaxşı və sağlam seçkilər keçirilir. Düşmən isə irad bildirir. Düşməndən bundan başqa bir gözlənti də yoxdur. Nə gözlənilir?! Gözlənilməyən dostların, bu xalqdan olanların, həqiqəti görən, seçkilərin necə sağlam keçdiyini görən və eyni zamanda düşmənin sözünü danışanların hərəkətidir.

Əcnəbi radiolar xalqı ruhdan salmaq üçün iki-üç ay öncədən ölkəmizdə keçiriləcək seçkiləri pisləməyə və gözdən salmağa başladılar. Bəzən dedilər ki, bu, seçki deyil, təyinatdır; bəzən dedilər ki, bu, hökumət tərəfindən idarə olunan bir oyundur və namizədlərin özləri oyun oynayırlar; müxtəlif namizədlərin bir-biri ilə fikir ayrılıqlarının olduğunu görürsünüz, amma bunların hamısı yalandır, oyundur. Bəzən

dedilər ki, seçkilər mütləq saxtalaşdırılacaq. Hər dəfə bir söz dedilər. Bütün bu təxribatlarda məqsəd bir şeydir: xalq seçkilərdə aktiv iştirak etməsin. Onlar bunu istəyirlər. Mənim əzizlərim! Əziz İran xalqı! Ayıq və sayıq İran xalqı! Bu otuz ildə bütün çətin keçidlərdən keçən təcrübəli İran xalqı! Bilin ki, onlar sizin demokratiyanızla müxalifdirlər. Düşmən sizin bu fəallığınızla, bu seçiminizlə müxalifdir. Onlar quruluşun xalqdan və xalqın səsindən ibarət olan dayağını məhv etmək istəyirlər. Onlar nə iş gördüklərini bilirlər.

# Xalqın vəzifəsi

## Bütün gücü və fəallığı ilə seçkilərdə iştirak etmək

Seçkilər nə qədər fəal keçsə, İran xalqının müxalif və düşmənlərin gözündəki əzəməti daha çoxalacaq, İran xalqına daha çox hörmət edəcəklər, dünyadakı dostlarınız da sevinəcəklər. İran xalqının seçkilərdə iştirak etməsi onun əzəmətini nümayiş etdirir.

Seçkilər budur. Mən bütün seçkilərdə xalqa birinci növbədə bunu deməyə çalışıram ki, sizin seçkidə iştirak etməniz mühüm məsələdir. Bu, İslam Respublikası quruluşunu təsdiq etmək və onu gücləndirməkdir.

Əziz İran xalqı! Mən sizə deyirəm: Düşmənlərin istəyinin tam əksinə olaraq bizim hamımız seçkilərlərdə fəal iştirak etməliyik.

İran xalqının həvəs, şüur, kamil dərk və agahlıqla seçki məntəqələrinə getməsinin mənası nədir? Mənası budur ki, xalq özünə səsvermə hüququ və gücü tanıyır, ölkənin gələcəyində rol oynamaq, ölkə məmurlarını və əsas idarəçilərini seçmək istəyir. Prezidenti seçmək icra hakimiyyətinin başçısını və ölkənin əksər imkanlarının ixtiyarında olduğu şəxsi seçməkdir. Və görürsünüz ki, bir prezidentin fəallığı, həvəsi və iradəsi olsa, bu ölkəyə necə böyük xidmətlər edə bilər. Onlar bunun qarşısını almaq istəyirlər. Mən deyirəm: Hamınız seçkilərdə iştiraka israrlı olmalısınız. Mənim

fikrimcə, seçkilərdə birinci məsələ bu və ya digər şəxsi seçmək yox, sizin fəal iştirakınızdır. Quruluşu və onun təməllərini möhkəmlədən, İran xalqının nüfuzunu artıran, ölkənin düşmənlər qarşısında müqavimətini çoxaldan, düşməni ölkəyə tamah salmaqdan, zərbə vurmaqdan, fəsad və iğtişaş törətməkdən daşındıran amil sizin iştirakınızdır. Bu çox əhəmiyyətli bir məsələdir. Deməli, birinci məsələ seçkilərdə iştirak etməkdir.

Xalqın fəallığı düşməni məyus edə bildi. Əgər xalq bu otuz ildə seçkilərdə iştirak etməsəydi, 22 Bəhmən və Qüds günlərinin yürüşlərinə çıxmasaydı, müxtəlif mərasimlərdə iştirakını və İran xalqının böyük izdihamını düşmənlərə göstərməsəydi, şübhəsiz, İran xalqı bugünkü kimi güclü olmayacaqdı. Bu fəallığı qoruyun.

Bizim bütün seçkilərdə xalqın fəal olmasına və müxtəlif səhnələrdə iştirak etməsinə təkid göstərməyimiz bundan ötrüdür. Bu iştirak yalnız siyasət sahəsi və yalnız seçkilərlə məhdud olmur; quruculuq

işlərində, iqtisadi işlərdə də xalq iştirak etməlidir.

İran xalqı bu otuz ildə öz məmurlarını təyin etməsi ilə fəxr edir. Quruluşun ən yuxarıdan başlayaraq bütün yüksək rütbəli məmurları xalqın vasitəsi ilə seçilmişlər. Rəhbər də dini ekspertlər vasitəsi ilə xalq tərəfindən seçilir, prezident, İslam Şurası Məclisi və bələdiyyələr də. Bu, quruluşun fəxrlərindəndir. Quruluşun bununla gücləndiyini bildiklərinə görə bunu xalqdan almaq istəyirlər. Mən də sizə deyirəm: Kim bu quruluşun güclənməsini istəyirsə, kim İslamı və İran xalqını sevirsə, ağıl və şəriətin hökmü ilə mütləq bu seçkilərdə iştirak etməlidir.

Mənim xalqdan istədiyim budur ki, bütün gücü, qüvvəsi və fəallığı ilə seçki məntəqələrinə gedib səs versinlər. Allah-Taala düşünən, qərar verən, seçən, Allah üçün və Allah yolunda öz seçiminə əməl edən xalqladır.

Adət üzrə mənim xalqdan istəyim budur ki, seçki başlayan kimi və səhər tezdən seçki

məntəqələrinə getsinlər. Hamı gedib münasib bildiyi namizədə səs versin, ölkənin idarəsində və ali icra orqanını təyin etməkdə üzərinə düşən vəzifəni yerinə yetirsin. Bu bir hüquq və eyni zamanda bir vəzifədir. Fikir bildirmək bizim xalqımızın həm haqqı, həm də vəzifəsidir. Mənim fikrimcə, bu iş həm şəriət, həm də ağıl nöqteyi-nəzərindən vacib əməldir.

## Daha layiqli şəxsi seçmək

Ən yaxşısı ölkənin dərdini anlayan, xalqın dərdini bilən, xalqa doğma, səmimi, fəsaddan uzaq olan və öz aristokratlığı barədə düşünməyən şəxsdir. Aristokratlıq və dəbdəbəçilik bizim böyük bəlamızdır; bir məmur dəbdəbəçi və aristokrat olsa, xalqı aristokratlığa və israfa sarı sövq edər. Biz dedik ki, bu il İstehlak örnəyinin islahı ilidir. Yəni bu ildə İran xalqı israfla mübarizə aparmağa qərar verməlidir. Demirik ki, bir il ərzində bütün israflara son qoyulsun. Xeyr, biz bundan daha realistik. Bilirik ki, bu iş uzun illərin işidir. Lakin bu mədəniyyətin

formalaşması üçün işləmək lazımdır. Gərək bu işə başlayaq.

Bizim xalqımız, gənclərimiz, mütəfəkkirlərimiz, tələbələrimiz və gələcəyimizi quranlar Qərb ölkələrinin idarə üsullarının acizliyini görsünlər. İdarəçiliyin ən önəmli sahəsi olan iqtisadi idarəetmədə onların acizliyini görsünlər; mədəniyyət öz yerində, insani ənənələr öz yerində, insana etinasızlıq öz yerində, öz hakimiyyətləri daxilində etdikləri ayrıseçkiliklər öz yerində. Qərb mədəniyyəti bütün bu sahələrdə pis imtahan vermişdir. Buna görə də bizim xalqımız, məmurlarımız və xüsusən gənclərimiz bu prinsip əsasında düşünsünlər, ölkənin və bu böyük xalqın idarəsinin müxtəlif üsulları üçün yerli proqram və nüsxələr tapsınlar. Bunun üçün İslamı daha dəqiq araşdırmaq tələb olunur. İslamın insana, insaniyyətə və insani üsullara aydın və aydınlaşdırıcı baxışı var. Biz qapalı İslam tərəfdarı deyilik və bəzi İslam iddiaçıları kimi bütün məsələlərə çox dar baxışla yanaşan İslama dəvət etmirik. Biz əsl İslama

dəvət edirik; insana xəbərdarlıq edən, insanı ağılla düşünməyə və fikirləşməyə yönəldən İslama, Quran İslamına, sünnə İslamına, Əhli-beyt (ə) İslamına; on illər sürən düşmən hökmranlığının çoxlu problemlərinə rəğmən, bizim böyük ölkəmizdə belə bir hərəkətə rəhbərlik etməyi bacaran, bu azadlığı və bu müstəqilliyi ərməğan edən İslama. Biz bu İslama dəvət edirik.

Bizim gənclərimiz, fikir adamlarımız, mədəniyyət xadimlərimiz düşünsünlər, dövlət məmurları İslam siyasətinə yaxınlaşsınlar. Bizim məmurlarımızın, yaxud indiki seçki ərəfəsində namizədlərimizin digərlərinin diqqətini cəlb etməkdən ötrü qərblilərin sözlərini təkrarlamaları heç bir üstünlük sayılmır. Üstünlük Qərbin sevdiyi sözü danışmaq deyil. Bunlar iranlı düşüncəsi ilə, İslam düşüncəsi ilə, İslam və iranlı kimliyi ilə müxalifdirlər. Allaha şükür edirik ki, İran xalqı bütün bu maneələrə qalib gələn inkişafı və lazımi agahlığı əldə etmişdir.

Düşmənlər qarşısında əllərini qaldırıb İran xalqını rəzil etmək istəyən şəxslər xalqın səsi

ilə iş başına gəlməsinlər; Qərbə, Qərb dövlətlərinə, hegemon və zorakı güclərə yaltaqlanmaqla beynəlxalq aləmdə özlərinə mövqe qazanmaq istəyən şəxslər iş başına gəlməsinlər. İran xalqı üçün bunların dəyəri yoxdur. İran xalqının düşmənlərinin xalqı bir-birindən ayırmağa, dinindən, prinsiplərindən və inqilab dəyərlərindən uzaqlaşdırmağa vasitə etmək istədiyi adamlar iş başına gəlməsinlər. Xalq agah olmalıdır.

Əgər müxtəlif siyasi, yaxud iqtisadi mərkəzlərdə imamın yolunu və imamın vasitəsi ilə təsvir olunmuş dəyər və prinsipləri davam etdirməyi düşünmək əvəzinə filan Qərb ölkəsinin, filan supergücün könlünü almaq barədə fikirləşən şəxslər iş başına gəlsələr, İran xalqı üçün fəlakət baş verəcək. Xalqa bu agahlıq lazımdır.

## Tərəfdarlar arasında dava-dalaş yaranmasından ehtiyatlı olmaq

Mənim əzizlərim! Müxtəlif namizədlərin hər birinin tərəfdarları, istəyənləri var. Bu namizədi sevənlər o biri namizədi sevənlərə etiraz edə bilməzlər ki, siz nə üçün onu sevir və mənim sevdiyim namizədi sevmirsiniz. Xeyr, bu bizim ölkəmizin fəxrlərindəndir. Müxtəlif şəxslər müxtəlif rəftarlarla, müxtəlif üsullarla, müxtəlif iş prinsipləri ilə xalqın qarşısına çıxırlar. Bir qrup bunu xoşlayır, bir qrup onu xoşlayır, bir qrup başqasını. Bu fəxrdir. Bu yaxşıdır. Möhtərəm namizədlərin hər birinin tərəfdarları var; bəziləri təəssübkeş tərəfdarlardır, öz namizədlərini çox sevirlər. Çox gözəl, eybi yoxdur, amma ehtiyatlı olun ki, bu sevgilər toqquşma ilə nəticələnməsin, iğtişaşa səbəb olmasın. Siz öz etiqadınız, öz imanınız üçün çalışırsınız; bu imanın və bu amalın düşməninin sizdən sui-istifadə etməsinə imkan verməyin.

Mən məlumat almışam ki, namizədlərin bəzi gənc tərəfdarları küçələrə çıxırlar. Mən indi küçələrə çıxmaq barədə bir söz demirəm,

amma təkidlə deyirəm ki, bu işlər qarşıdurma, mücadilə, dava-dalaşla nəticələnməsin; ehtiyatlı olun. Əgər kiminsə iğtişaş və davaya israrlı olduğunu görsəniz, bilin ki, ya xaindir, ya da çox cahil.

Son günlərdə və hətta bildiyim qədərincə gecələrdə də xalqın küçələrdə göstərdiyi bu fəallığa görə təşəkkür etməliyəm. Hər bir qrup öz istəyinə və fikrinə uyğun şüar verirdi, amma xalqın yetkinliyi və agahlığı xoşagəlməz hadisənin yaranmasına qoymadı; səhnədədirlər, şüarlarını verir, sevgilərini bildirirlər, lakin eyni zamanda öz yetkinliklərini, kamilliklərini və əqli inkişaflarını da göstərirlər. Seçkilərin təhlükəsizliyi çox mühüm məsələdir. Biz otuz ildir seçkilər keçiririk və Allaha şükür edirik ki, seçkilərdə həmişə təhlükəsizlik bərqərar olunmuşdur. Bu çox böyük nemətdir. Bu, ilahi lütfdən və bizim xalqımızın şüur və dərkindən irəli gəlir. Bu gün də mən ümidvaram və xalqdan xahiş edirəm ki, diqqətli olsunlar, həmin sabitlik, sakitlik, lazım olan həmin təmkin və vüqar

yenə də onlarda mövcud olsun. Bəzi bədxahların seçki məntəqələrində iğtişaş yaratmağa çalışmaları mümkündür. Hər bir iğtişaş seçki məntəqəsinin zərərinə bitəcək; yəni xalqın və onun səsinin zərərinə. Əgər kimlərsə belə iğtişaş törətmək istəsələr, xalqın özü qoymasın, öz mətanəti, dözümlülüyü, səbri və vüqarı ilə bu xalqın bədxahlarının istəyinin həyata keçməsinə mane olsun.

# Namizədlərin vəzifələri

## Təbliğat və çıxışlarda İran xalqının iqtidarını qorumaq

Namizədlər bilsinlər ki, seçkilər xalqın iqtidarını artırmaq və onu başıuca etmək üçün bir vasitədir, yalnız hakimiyyətə gəlmək üçün yox. Əgər belədirsə, deməli, namizədlər buna əhəmiyyətli yanaşmalı, təbliğat və çıxışlarında riayət etməlidirlər. Namizədlər öz seçki fəaliyyətləri əsnasında düşməni tamaha salan rəftar və çıxışlar etməsinlər; rəqabət və sözləri insaflı olsun.

Təbii ki, hər namizədin öz sözü var və tərəf-müqabilinin sözünü rədd edir. Öz-özlüyündə bu rədd etməyin və irad bildirməyin eybi yoxdur, amma bu şərtlə ki, insafsızlıq olmasın, həqiqət gizlədilməsin. Meydan hamıya açıqdır; gəlib özlərini xalqa təqdim etsinlər.

Namizədlər sayıq olsunlar. Prezidentliyə namizədlər öz təbliğatlarında düşmənləri sevindirən sözlər danışmasınlar, Allahın razılığını nəzərə alsınlar, övliyaların razılığını nəzərə alsınlar. Xalqın müqavimətinə və möhkəmliyinə səbəb olan amil meyar seçilməlidir və o da İslama güclü bağlılıqdır.

## Özünü təsdiq etmək üçün digərini inkardan çəkinmək

Möhtərəm namizədlər də ehtiyatlı olsunlar. Bir namizəd istər təbliğat nitqlərində, istər söhbətlərdə, istər televiziyada, istər digər yerlərdə özünü təsdiq etmək üçün digərini inkardan, özü də müxtəlif formalarla inkardan istifadə

etməməlidir. Mənim fikrimcə, bu düzgün deyil.

## Diskussiya və çıxışlarda şəriət çərçivələrinə riayət etmək

Hər kəsin özünə görə bir məsuliyyət və vəzifə hissi var; məsuliyyət hiss edib səhnəyə çıxır. Mən diskussiya, mübahisə, müzakirə və tənqidə qarşı deyiləm, amma çalışın bu, şəriət və din çərçivələrində baş versin.

## Fikir ayrılıqlarının iğtişaşa və çəkişməyə çevrilməsinin qarşısını almaq

Ehtiyatlı olsunlar ki, bu çıxışlar, bu söhbətlər ədavətlə nəticələnməsin, qardaşlıq və mehribanlıq olsun. Əlbəttə, müxtəlif şəxsi və ümumi məsələlərdə fikir və üslub fərqi təbii bir məsələdir, eybi də yoxdur. Lakin bunun iğtişaşa çevrilməsinə qoymayın.

## Əməl və təbliğatda insafa riayət etmək

Namizədlər bilsinlər ki, seçkilər xalqın iqtidarını artırmaq və onu başıuca etmək üçün bir vasitədir, yalnız hakimiyyətə

gəlmək üçün yox. Əgər belədirsə, deməli, namizədlər buna əhəmiyyətli yanaşmalı, təbliğat və çıxışlarında riayət etməlidirlər. Namizədlər öz seçki fəaliyyətləri əsnasında düşməni tamaha salan rəftar və çıxışlar etməsinlər; rəqabət və sözləri insaflı olsun. Təbii ki, hər namizədin öz sözü var və tərəf-müqabilinin sözünü rədd edir. Öz-özlüyündə bu rədd etməyin və irad bildirməyin eybi yoxdur, amma bu şərtlə ki, insafsızlıq olmasın, həqiqət gizlədilməsin.

## Təhdidlər

### Bəzi dostların qədirbilməzliyi və seçkiləri gözdən salmaq üçün düşmənin sözlərini təkrarlaması

Allahın lütfü, qüvvə və qüdrəti ilə seçkilər sağlam keçiriləcək. Mən görürəm ki, bəzi adamlar iki-üç aydan sonra keçiriləcək seçkiləri indidən gözdən salmağa başlayıblar. Bu necə məntiqdir?! Bu necə düşüncədir?! Bu necə insafdır?! Bu otuz il ərzində təxminən otuz seçki keçirilib. Hər bir seçkidə məsul

şəxslər rəsmi şəkildə öhdəlik götürmüş, seçkilərin doğruluğuna zəmanət vermişlər və seçkilər düzgün keçirilmişdir. Nə üçün əbəs yerə gözdən salır, xalqı məyus edir və şübhə yaradırlar? Əlbəttə, bizim əziz xalqımız bu sözlərlə şübhəyə düşməyəcək.

Düşmən irad bildirir. Düşməndən bundan başqa bir gözlənti də yoxdur. Nə gözlənilir?! Gözlənilməyən dostların, bu xalqdan olanların, həqiqəti görən, seçkilərin necə sağlam keçdiyini bilən və eyni zamanda düşmənin sözünü danışanların hərəkətidir.

Düşmənlər öz təbliğat şəbəkələrində xalqın bu dəyərli təsirini və ölkənin idarəsindəki rolunu inkar edir, yaxud görməzdən gəlirlər. Dəfələrlə açıq söhbətlərində və kinayəli sözlərində ölkəmizin seçkilərinə irad bildirmişlər. Xeyr, bizim ölkəmizin seçkiləri demokratiya iddiası edən bu ölkələrin əksərinin seçkilərindən daha azaddır, daha izdihamlı keçir və xalq həvəslə səs verir.

İran xalqının yanında, İran xalqından olan və İran xalqının dəstəyini gözləyən şəxslər daha İran xalqının əleyhinə danışmasın, İran

xalqının seçkilərini sual altına salmasın, daim təkrar etməsinlər ki, bu seçkilər sağlam deyil, seçki deyil. Nə üçün yalan deyirlər? Nə üçün insafsızlıq edirlər? Nə üçün həqiqətin əksinə danışırlar? Nə üçün bu xalqın və məmurların uzun illər çəkdikləri bütün bu zəhmətləri görməzliyə vururlar? Nə üçün? Nə üçün qədirbilməzlik edirlər?

Bundan qabaqkı seçkilər sağlam olmuşdur. Bəzi yerlərdə şübhə yaranmışsa, biz nümayəndələr göndərmişik, gedib araşdırmışlar.

Parlament seçkilərinin birində şayiə yayıldı ki, nəticələr saxtalaşdırılmışdır. Bəzi adamlar seçkilərin sağlam keçirilmədiyinə dair dəlil gətirdilər və sözlər danışdılar. Onlar bəzi mühüm şəhərlərdə, o cümlədən Tehranda nəticələrin ləğv olunmasını istəyirdilər. Biz peşəkar və məlumatlı şəxsləri göndərdik, araşdırıb gördülər ki, xeyr, seçkilərdə nöqsan yoxdur. Minlərlə qutunun üç-beşində nöqsanın olması mümkündür. Bu, seçkiləri korlamır. Bu da bəzən baş vermişdir.

Bəzən sizin tanıdığınız bu cinahlardan biri iş başında olub, lakin seçkilərin nəticəsi onların zərərinə və qarşı tərəfin xeyrinə bitib. Bu, dəfələrlə baş vermişdir.

**Prezident seçkilərində rəhbərin mövqeyi**

Siz əzizlərə və bütün əziz xalqımıza bunu da deyim ki, seçkilərdə rəhbərin mövqeyi haqda təxmin və şayiələr həmişə olub və olacaq. Mənim bir səsim var, onu da qutuya salacaq və bir nəfərə səs verəcəyəm. Başqa heç kimə də deməyəcəyəm ki, kimə səs verin, kimə səs verməyin. Bu, xalqın öz seçimidir. Mən bəzən hökuməti dəstəkləyirəm, müdafiə edirəm. Bəzi adamlar bunun üçün yanlış məna qondarmaq istəyirlər. Xeyr, mən həmişə hökumətləri müdafiə edirəm. Lakin bir hökumət daha çox hücuma məruz qaldıqda və insafsız hücumların olunduğunu duyduğumda daha çox müdafiə edirəm. Mən insaf tərəfdarıyam; deyirəm ki, insaflı olmalıyıq. Gəlin əməllərə baxaq. Bunun seçkilərə dəxli yoxdur, insaf və insafsızlıq mövzusudur. Ölkəyə xidmət edənləri

dəstəkləmək həm mənim vəzifəmdir, həm də hamının. Bunun seçki mövqeyi ilə əlaqəsi yoxdur. Mən hər bir yaxşı hərəkəti, hər bir yaxşı işi, hər bir inkişafı, xalqa göstərilən hər bir xidməti, məhrumlara edilən hər bir qayğını, zülm və hegemonluq qarşısında göstərilən hər bir müqaviməti yaxşı qarşılayıram, bu işləri görənlərə təşəkkür və minnətdarlıq edirəm; hansı hökumət olursa-olsun, hansı şəxs olursa-olsun. Bu mənim vəzifəmdir.

Bu seçkilərdə mənim yalnız bir səsim var və məncə onu da heç kim bilmir. Kimlərsə təxmin vura bilərlər. Mən heç kimə demirəm, deməmişəm və deməyəcəyəm ki, kimə səs verin, kimə səs verməyin. Bu, xalqın işidir. Mənim səsim özümə aiddir. Mənim xalqdan istəyim budur ki, hamı seçki məntəqələrinə gedib səs versinlər.

Şayiələrə çox qulaq asmayın. Mən gördüm ki, dünən göndərilən çoxlu mesajlarda guya mənim dediyim sözləri yayıblar. Bunların hamısı yalandır və həqiqət deyil. Səmimi və sağlam insanlar bu işləri görmürlər, qeyri-

sağlam adamlar bu işləri görürlər. Bütün sahələrdə və bütün qruplarda az-çox pis niyyətli və qeyri-sağlam insanların olması mümkündür. Bu şayiələrə də diqqət yetirməsinlər. Bu gün də xalq arasında müxtəlif şayiələr dolaşa bilər. Əvvəldə və sonda birinci növbədə bizim inamımız Allahın lütfünə və ilahi yardımadır; Allah-Taaladan kömək istəyirik. İkinci növbədə isə xalqın agahlığına, yetkinliyinə və sayıqlığına arxalanırıq.

## Proqnoz: xalqın seçkilərdə həvəslə və səmimi iştirakı

Bütün İran xalqı düşmənlərin acığına qarşıdan gələn seçkilərdə də həvəslə və səmimi şəkildə seçki məntəqələrinə gedib düşmənləri qəzəbləndirən bir seçki nümayiş etdirəcəklər.

# İkinci fəsil

## Rəhbərin seçkilərdən bir həftə sonra - 19 iyunda qıldığı cümə namazına qədərki fikirləri

## Təhlil və izahlar

### İranın siyasi və psixoloji hücum qarşısında toxunulmazlığı

Əziz İran xalqı!

Agah, şücaətli və zamanı tanıyan kişi və qadınlar!

Allahın salam və rəhmətini qazanmaq üçün öz ləyaqətini isbat edən sizlərə Allahın salamı olsun! Sizin qəhrəmanlıq yaratdığınız cüməniz heyrətamiz və misilsiz bir hadisə idi. Bu hadisədə İran xalqının siyasi yetkinliyi, qərarlı inqilabi çöhrəsi, mədəni iqtidar və potensialı gözəl və təntənəli formada bütün dünyaya nümayiş etdirildi.

Sizin vüqar, mətanət və kamilliyinizlə İran tarixinə yazdığınız iqtidar və izzət, düşmənin psixoloji müharibəsinin alovları altında bu təyinedici meydanda göstərdiyiniz sarsılmaz iradə elə böyük əhəmiyyətə malikdir ki, heç bir adi və normal vəsfə sığmır. Yalnız bunu demək olar ki, İran xalqı ilahi rəhmət amillərini qoruyub bu ölkənin inkişaf və ucalığını təmin etməkdə Allahın qüdrət əlini öz başı üzərində saxlaya bilmişdir.

22 Xordad (12 iyun) seçkiləri İran xalqının məharəti sayəsində milli seçkilərin uzun sırasında yeni bir rekord oldu. Xalqın səksən faizdən çoxunun seçki məntəqələrinə getməsi və qələbə çalmış namizədə iyirmi dörd milyon nəfərin səs verməsi Allahın qüvvə və qüdrəti ilə ölkənin inkişaf və ucalığını, milli təhlükəsizlik və aktivliyini təmin edən həqiqi bir bayramdır. Siz dünən sübuta yetirdiniz ki, İran torpağı İslam inqilabının şüar və dəyərləri sayəsində siyasi və psixoloji hücuma qarşı çox toxunulmaz və güclüdür; belə ki, bu ölkədə dini demokratiyanın yaranmasından otuz il sonra həmişəkindən

daha enerjili və daha aktiv şəkildə səhnəyə çıxır, dost və düşmənləri öz işıqlı yolunu davam etdirməyə əmin edir.

Mən siz əziz xalqın iradə və imanına dərin hərmətimi ifadə edib, bu böyük uğur münasibətilə dövrün əzəmətli imamı həzrət Mehdini (ə), Böyük İmamın ruhunu və hər bir vətəndaşı təbrik edir, hamını bu ilahi lütfü uca tutmağa, Hikmətli və Elmli Rəbbimiz önündə şükür etməyə çağırıram.

## İslam quruluşunda demokratiyanın hakim olmasını bütün dünyaya nümayiş etdirmək

Biz bu seçkilərdə xalqın qırx milyona yaxın səsinə diqqət yetirməliyik. Bu mühüm məsələdir və düşünürəm ki, bizim hamımız bunu qorumağa borcluyuq. İslam quruluşunu açıq şəkildə dəstəkləyən bu milli birliyə əhəmiyyətsiz yanaşmaq olmaz. Bu çox mühüm məsələdir.

## Xalqın iğtişaşa yol vermədən küçələrə çıxması

Bu gün İslam quruluşu onda həqiqi demokratiyanın hakim olduğunu göstərir. Xalq gəlib müxtəlif namizədlərin çıxışını dinləyir, təxminən 10-15 gün küçələrdə fəallıq göstərir. Mənim fikrimcə, bu çox mühüm məsələdir. Biz xalqın çoxlu gecələrdə Tehranın və digər şəhərlərin küçələrinə toplaşması, bəzilərinin bu, bəzilərinin isə digər namizədi dəstəkləyib şüar verməsi, amma aralarında heç bir iğtişaşın yaranmaması ilə fəxt etməliyik. Bu çox mühüm məsələdir. Bizim xalqımız budur: üslub fərqləri var, müxtəlif namizədlərə qarşı müxtəlif fikirlər var, amma bir-biri ilə həmkarlıq edirlər.

## Demokratiyanın şərti: əməldə çoxluğun azlıqdan önə keçməsi

Bir namizədə dəstək üçün toplaşan şəxslər başqa bir namizədə dəstək üçün toplaşan şəxslərlə eyni xalqdandırlar, bu xalqdan olan qruplardır. Biz bu baxışla baxmalıyıq. Fərqli

fikirləri də var; bir dəstə buna səs verir, bir dəstə ona. Əlbəttə, demokratiyanın şərti budur ki, əməl məqamında çoxluq azlıqdan önə keçsin; yəni çoxluğun səsini qazanmış şəxs iş başına gəlsin. Bu, demokratiyanın şərtidir, təzad və düşmənlik yaratmaq deyil.

## Dini demokratiya - üçüncü yol

Mən çıxış və xütbələrdə öz dinləyicilərimlə mübaliğə ilə danışmağı, yaxud onlara yaltaqlanmağı sevmirəm, amma bu seçkilərdə siz əziz xalqa müraciətlə deyirəm ki, nə qədər mübaliğə ilə danışsam, çox deyil. Siz böyük iş gördünüz. 22 Xordad (12 iyun) seçkiləri bizim xalqımızın ölkənin taleyi üçün məsuliyyət hissinin möhtəşəm nümayişi idi; xalqın öz ölkəsinin idarəsində iştirak etməsinin möhtəşəm nümayişi idi; xalqın öz quruluşuna sevgisinin möhtəşəm nümayişi idi. Mən ölkədə baş verən bu iş üçün bu gün dünyada və müxtəlif demokratik ölkələrdə - istər formal və yalançı, istərsə də həqiqətən xalqın səsinə müraciət olunan demokratik ölkələrdə həqiqətən bənzər tanımıram. İslam

Respublikasında da sizin ötən cümə keçirdiyiniz bu seçkilərə 1979-cu ilin aprel referendumundan başqa heç bir bənzər yoxdur; təxminən səksən beş faizlik iştirak; təxminən qırx milyon nəfərin səs verməsi. İnsan belə əzəmətli hadisələrin arxasında dövrün imamının mübarək əlini görür. Bu, Allah lütfünün əlamətidir. Mən bütün əziz xalqımıza səmimi hörmət və təşəkkürümü bildirirəm.

Xüsusən bizim gənc nəslimiz göstərdi ki, inqilabın birinci nəslində gördüyümüz siyasi fəallığa, siyasi şüura və siyasi məsuliyyətə malikdir. Bu fərqlə ki, inqilab dövründə inqilabın isti sobası ürəkləri həyəcana gətirirdi; sonra müharibə dövründə də başqa bir formada elə oldu. Bu gün bunlar yoxdur, amma eyni zamanda bizim indiki nəslimizdə bu öhdəlik, bu məsuliyyət hissi, bu fəallıq və şüur mövcuddur. Bunlar kiçik məsələlər deyil. Düzdür, xalq arasında fikir ayrılığı var, görüş fərqi var; bəziləri bir nəfəri və bir sözü qəbul edirlər, bəziləri də başqasını və başqa sözü. Bunlar var və təbiidir, lakin fikir

fərqlərinə rəğmən, bütün xalqda ümumi bir öhdəlik duyulur; ölkə və quruluşlarını qorumaq üçün kollektiv bir öhdəlik. Hamı hərəkətə gəldi; böyük və kiçik şəhərlərdə, kəndlərdə müxtəlif milliyyətlər, müxtəlif məzhəblər, kişi və qadınlar, qoca və gənclər – hamı hərəkətə gəldi; hamı bu möhtəşəm kampaniyalarda iştirak etdi.

Mənim əzizlərim! Bu seçkilər sizin düşmənləriniz üçün siyasi bir zəlzələ, dünyanın müxtəlif yerlərində olan dostlarınız üçün isə həqiqi və tarixi bir bayram idi. İnqilabın otuzuncu ilində xalq bu quruluşa, bu inqilaba və Böyük İmama sədaqətini bu şəkildə ifadə etdi. Bu, imam və şəhidlərlə əhd-peymanı yeniləmək üçün xalqın ümumi hərəkatı, İslam Respublikası quruluşu üçün isə nəfəs təzələmək və yeni bir təkan götürmək üçün böyük bir fürsət idi. Bu seçkilər dini demokratiyanı bütün dünya xalqlarına nümayiş etdirdi. İslam Respublikası quruluşuna qarşı bədxahlıq edən bütün şəxslər dini demokratiyanın nə olduğunu gördülər. Bu, üçüncü yoldur. Bu

bir tərəfdən diktatura və avtoritar quruluşlar və digər tərəfdən din və mənəviyyatdan uzaq demokratiyalar qarşısında dayanan dini demokratiyadır. Buna görə xalqın diqqətini cəlb edir və onları səhnəyə çəkir. Bu öz imtahanını verdi.

## Onuncu prezident seçkilərinin misilsiz olması

Seçkilər bizim fəxrimizdir. Qırx milyon səs zarafat deyil. Bu bizim indiyədək əldə etdiyimiz ən yüksək rekorddan nəzərəçarpacaq həddə çoxdur. Bu çox mühüm məsələdir. Otuz ildən sonra bizim xalqımızın İslam Respublikası quruluşuna sadiqliyi o həddədir ki, belə həvəs və rəğbətlə meydana atılır. Biz xəbərləri izləyirdik; xarici xəbər agentliklərinin hamısı ilk saatlardan dedilər ki, bu dəfə xalq möhtəşəm şəkildə iştirak edir. Bunu hamısı dedi. Gedib səs verdikdən sonra gördüklərini danışanlardan əlavə, xəbər agentlikləri və bəzi əcnəbi televiziya kanalları da işıqlandırdılar ki, xalqın iştirakı ciddi, fəal və

izdihamlıdır. Bəzi xarici kanallar sıraya düzülüb növbə gözləyən insanları göstərdi. Bu, ölkə üçün fəxrdir; bunu gözdən salmayaq, korlamayaq. Bu, xalqındır.

## Ölkənin bədxahlar önündə köməyə ehtiyacı olduğu zaman xalqın seçki fəallığı

Həmişə görmüsünüz ki, ölkə məmurları və mənim özüm səsvermədə iştirak edənlərin artmasına təkidlə çalışmışıq. Xalqı həvəsləndirirdik, xalq da həssas zamanlarda sayıqlıqla hadisələrə qoşulurdu; ölkənin öz müxalifləri və dünyadakı bədxahları qarşısında uca fəryad qoparmağa ehtiyac olduğu vaxtlarda seçki məntəqələrinə gedib səs vermişlər. Mən seçki münasibəti ilə təbrik müraciətlərinin bir neçəsində bu cümləni təkrarlamışam: "Sayıq və zamanı tanıyan xalq".

## Xalqın ümidi, sevinci və İslam Respublikasına inamı

Xalq bu ölkədə inamla, ümidlə və milli sevinclə yaşayır. Bu, sizin düşmənlərinizin

qərəzli təbliğatlarında söylədikləri çoxlu sözlərin cavabıdır. Əgər xalqın gələcəyə ümidi olmasa, seçkilərdə iştirak etməz; əgər öz quruluşuna inanmasa, seçkilərdə iştirak etməz; əgər azadlıq hiss etməsə, seçkilərə yaxşı münasibət bəsləməz. İslam Respublikası quruluşuna inam bu seçkilərdə aşkara çıxdı.

Düşmənlər xalqın bu inamını hədəf seçmişlər; İran xalqının düşmənləri bu inamı məhv etmək, İslam Respublikasının ən böyük sərvəti olan bu inamı ondan almaq istəyirlər. Onlar bu inamı zəiflətmək üçün bu seçkilər və xalqın bu inamı barədə şübhə yayırlar.

İran xalqının düşmənləri bilirlər ki, inam olmayanda fəallıq zəifləyir və fəallıq zəifləyəndə quruluşun legitimliyi sarsılır. Onlar bunu istəyirlər. Düşmənin məqsədi budur. İnamı almaq istəyirlər ki, fəallığı alsınlar və İslam Respublikası legitimliyini itirsin. Bunun zərəri bank və avtobus yandırmaqdan daha çoxdur. Bu, başqa heç bir ziyanla müqayisəolunası deyil. Xalq belə bir möhtəşəm tədbirdə belə həvəslə iştirak

edir, sonra ona deyilir ki, siz quruluşa inanmaqda səhv etdiniz, quruluş etimada layiq deyil. Dümən bunu istəyir.

Bu kampaniya seçkilərdən öncədən başladı; bundan iki-üç ay qabaqdan. Mən fərvərdin ayının 1-də (martın 21-də) Məşhəddə dedim ki, daim qulaqlara pıçıldayır və təkrar edirlər ki, seçkilər saxtalaşdırılacaq. Onlar şəraiti hazırlamaq istəyirdilər. Mən o zaman ölkə daxilində olan yaxşı dostlarımıza xəbərdarlıq etdim və dedim ki, düşmənin xalqın beyninə yeritmək istədiyi bu sözü deməyin. Xalq İslam Respublikası quruluşuna inanır. Bu inam asan əldə olunmayıb. İslam Respublikası quruluşu otuz ildir məmurları, əməlləri və çoxlu zəhmətləri ilə xalqın qəlbində bu inamı gücləndirə bilmişdir. Düşmən bu inamı alıb xalqı zəiflətmək istəyir.

## Bütün xalqın ümumi öhdəlik, gənclərin həvəs, siyasi öhdəlik və şüur nümayiş etdirməsi

Fikir fərqlərinə rəğmən, bütün xalqda ümumi bir öhdəlik duyulur; ölkə və quruluşlarını qorumaq üçün kollektiv bir öhdəlik. Hamı hərəkətə gəldi; böyük və kiçik şəhərlərdə, kəndlərdə müxtəlif milliyyətlər, müxtəlif məzhəblər, kişi və qadınlar, qoca və gənclər – hamı hərəkətə gəldi, hamı bu möhtəşəm kampaniyalarda iştirak etdi.

Xüsusən bizim gənc nəslimiz göstərdi ki, inqilabın birinci nəslində gördüyümüz siyasi fəallığa, siyasi şüura və siyasi məsuliyyətə malikdir. Bu fərqlə ki, inqilab dövründə inqilabın isti sobası ürəkləri həyəcana gətirirdi; müharibə dövründə də başqa bir formada belə oldu. Bu gün bunlar yoxdur, amma eyni zamanda bizim indiki nəslimizdə bu öhdəlik, bu məsuliyyət hissi, bu fəallıq və şüur mövcuddur. Bunlar kiçik məsələlər deyil.

## Dörd namizədin hər hansı birinə səs verənlərin inqilab cəbhəsindən olmaları

Bu dörd namizədə səs verənlərin hamısı savab qazandılar; inşallah ilahi savabları

olacaq. Onların hamısı inqilab cəbhəsinin daxilində və quruluşa məxsusdurlar. Əgər Allaha yaxınlaşmaq niyyəti ilə səs vermiş olsalar, ibadət də etmişlər. İnqilabın qırx milyon səsi var. İnqilaba indiki prezidentə səs verən iyirmi dörd milyon yarım yox, qırx milyon nəfər səs verdi.

**Bütün namizədlərin quruluşa məxsus olması**

Ciddi rəqabətə qoşulan bu dörd nəfərin hamısı quruluşun kadrlarından və quruluşa məxsus qüvvələr idilər; indi də belədirlər. Bunların biri bizim ölkəmizin xidmətçi, fəal, zəhmətkeş və etimadlı prezidentidir. Onların biri mənim prezidentlik dövrümdə səkkiz il Baş nazir olan şəxsdir. Daha birisi uzun illər Keşikçilər korpusunun komandanı və müqəddəs müdafiə dövrünün əsas komandirlərindən olmuşdur. Yerdə qalan bir nəfər də ölkənin qanunverici hakimiyyəti olan İslam Şurası Məclisinə iki dəfə sədrlik etmişdir. Bunlar quruluşun kadrlarıdır. Bunların hamısı quruluşa məxsusdurlar.

Düzdür, fikir ayrılıqları var, proqram fərqləri var, müxtəlif siyasi istiqamətlərdə bir-biri ilə çoxlu düşüncə fərqləri var, amma hamısı quruluşa məxsusdur. Bu dörd nəfər quruluşun kadrlarıdır. Bu rəqabət quruluşun daxilində aparıldı, onun daxili ilə xarici arasında yox. Xəbis Sionizm radiosu, Amerika radiosu, İngiltərə radiosu və digərləri daim buna inandırmağa çalışırlar. Xeyr, bu rəqabət quruluşun daxilində və quruluşa məxsus qüvvələr arasında keçirildi. Hamısı bu quruluşun idi və qeyd etdiyim xidmət stajları var. Mən onların hamısını yaxından tanıyıram, düşüncələrini, üslublarını, davranış tərzlərini bilirəm, hamısı ilə yaxından işləmişəm.

Əlbəttə, mən bu cənabların bütün baxışlarını qəbul etmirəm. Bəzilərinin fikir və əməlləri mənim nəzərimdə şübhəsiz, tənqidə layiqdir; ölkəyə xidmət etmək üçün bəzilərini digərlərindən daha münasib bilirəm, amma seçim xalqındır və xalq seçdi. Mənim istəyim və seçimim nə xalqa deyildi, nə də xalqın ona əməl etməsi lazım idi. Xalqın özü öz

meyarlarına uyğun şəkildə seçdi, hərəkət və əməl etdi; milyonlar bu tərəfə, milyonlar o tərəfə. Buna əsasən, məsələ quruluşun daxili məsələsidir. Məsələnin mahiyyətini dəyişmək mütləq qərəzli və pisdir. Mübarizə quruluşla onun xaricindəki qüvvələr arasında, inqilabla əksinqilab arasında deyil, quruluşun daxili qüvvələri arasında getdi.

## Rəqabətlərin azad, ciddi və şəffaf aparılması

Bu rəqabət və diskussiyalar mühüm və maraqlı yenilik idi, çox açıq, çox şəffaf və çox ciddi aparıldı. Bu diskussiyalar xaricdən seçki rəqabətlərinin simvolik olduğunu və real olmadığını təbliğ edən şəxslərin ağzından vurdu. Gördülər ki, xeyr, realdır, ciddi şəkildə bir-birinin qarşısında dayanmışlar, bir-biri ilə mübahisə edir və diskussiya aparırlar. Bu baxımdan diskussiya və müzakirələr çox yaxşı təşəbbüs idi. Lakin ümumilikdə onun həm müsbət cəhətləri, həm də nöqsanları da vardı. İndi mən hər ikisini deyəcəyəm.

## Diskussiyaların müsbət cəhətləri

Müsbət cəhət bu idi ki, bu diskussiyalarda, müzakirələrdə, bu teledebatlarda hamı şəffaf və rahat şəkildə danışdı, ürək sözlərini dedi. Tənqid fırtınası qopdu və hamı cavab verməyə məcbur oldu; tənqid olundular, cavab verdilər, özlərini müdafiə etdilər. Şəxs və qrupların mövqeləri heç bir qaranlıq olmadan şəffaf və çılpaq formada xalqa bəlli oldu; siyasətləri nədir, proqramları nədir, nəyə və hansı həddə inanırlar. Bunlar xalqa bəlli oldu, xalq mühakimə yürüdə bildi və İslam quruluşunda özgə sayılmadığını, quruluşda ögey-doğmanın olmadığını bildi. Hər şey xalqa aşkar oldu, bütün fikirlər xalqın qarşısında deyildi və bəlli oldu ki, xalqın səsi bu diqqət və mülahizələrdən doğacaq. Xalqın səsi bəzək üçün deyil, seçim haqqı həqiqətən xalqa məxsusdur. Xalq agah və məlumatlı şəkildə seçmək istəyir. Bu diskussiyalar bunu təmin etdi. Şübhəsiz, qabaqkı seçkilərin ən yüksək rekorduna nisbətən on milyon səsin artmasının

səbəblərindən biri bu idi ki, xalqın beyni və düşüncəsi işlədildi, diqqətlə ölçüb-biçmə imkanı yarandı. Bu diskussiyalar küçə səviyyəsinə də çıxdı, evlərin içinə də girdi. Bunlar xalqın seçim qabiliyyətini yüksəldir. Belə mübahisə və müzakirələr zehinləri inkişaf etdirir və seçim qabiliyyətini artırır. Bu, İslam Respublikasına görə ideal bir şeydir.

Təbii ki, bu müzakirələr kin və ədavət həddinə çatmamalıdır. Əgər belə olsa, əks-təsir bağışlayacaq. Əgər ogünkü formada və həmin həddə qalsaydı, yaxşı idi; lakin daim dartılıb uzadılsa, tədricən kinə çevriləcək. Əlbəttə, çox yaxşı olar ki, sonra deyəcəyim nöqsanları çıxmaq şərti ilə belə diskussiyalar davam etdirilsin və məmurlar tənqid olunub cavab versinlər. Kimsə tənqid olunduqda onun üçün şübhələri aradan qaldırmaq, açıqlamaq və həqiqəti bəyan etmək imkanı yaranır. Bu çox yaxşıdır, amma mütləq qeyd edəcəyim nöqsanları çıxmaq şərti ilə. Əgər belə diskussiyalar il ərzində və dörd il boyunca davam etsə, daha seçki zamanı

partlayışa səbəb olmaz. Bütün sözlər - tənqid və cavablar il boyu deyilmiş və eşidilmiş olar. Bunlar bu diskussiyaların çox gözəl cəhətləri idi. Lakin onun nöqsanları da vardı və bu nöqsanları aradan qaldırmaq lazımdır. Bəzən bu diskussiyalarda məntiq cəhətinin zəifliyi hiss olunur, əsəbi və emosional hal yaranır və gözdənsalma cəhəti üstün gəlirdi. Bu diskussiyalarda mövcud durumu ifratçı formada pisləmək göründü; orada ötən dövrləri həddən artıq pisləmək də müşahidə olundu. Bunların hər ikisi pisdir. Bu debatlarda heç bir yerdə sübuta yetməmiş ittihamlar irəli sürüldü, şayiələrə istinad olundu və bəzən insafsızlıqlar baş verdi; həm bu qədər xidmət göstərmiş indiki iqtidara qarşı insafsızlıq, həm də keçmiş iqtidarlara və otuzillik dövrə qarşı. Cənablar söhbət zamanı hissiyyata qapılır və yaxşı sözləri arasında yaxşı olmayan sözlər də deyirdilər. Mən də bütün xalq kimi televizor qarşısında oturub bu verilişlərə tamaşa etdim və söz azadlığından həzz aldım; İslam Respublikası quruluşunun xalqın köməyi ilə onun seçim

qüvvəsini yüksəldə bilməsindən həzz aldım. Lakin məsələnin bu nöqsanlı hissələri məni kədərləndirdi. Həmin nöqsanlı hissələr, sataşmalar və bəzi açıq sözlər namizədlərin tərəfdarlarını da gərginləşdirdi və nigaran etdi. Bu hər iki tərəfdə göründü. Mən burada cümə namazı kürsüsündə və namazdan sayılan bir xütbədə həqiqətləri deməliyəm. Təəssüf ki, bu nöqsanda hər iki tərəfin payı var. Bir tərəfdən ölkənin qanuni prezidentinə qarşı ən açıq təhqirlərə yol verildi. Debatlardan 2-3 ay öncədən bəzi çıxışları mənə gətirirdilər, mən görür və bəzən eşidirdim ki, ittihamlar irəli sürür, sözlər danışırlar. Kimə qarşı? Xalq tərəfindən seçilmiş qanuni prezdentə qarşı. Yanlış nisbətlər verdilər, xalqın etimad göstərdiyi prezidenti yalançılıqda ittiham etdilər. Bunlar yaxşıdır?! Hökumət üçün yalan qovluqlar düzəldib orada-burada yaydılar. Biz işin içərisindəyik və bunların həqiqət olmadığını bilirik. Təhqirlər etdilər, prezidentə xurafatçılıq, falçılıq və digər

rüsvayçı işlər aid etdilər; əxlaqı, qanunu və insafı ayaq altına atdılar.

### Debatların eyib və nöqsanları

Həmçinin bu tərəf də başqa bir formada oxşar işləri gördü. İnqilabın otuzillik parlaq keçmişi zəif göstərildi. Bu quruluşun böyük şəxsiyyətlərinin, ömürlərini bu quruluşa həsr etmiş bəzi şəxslərin adları çəkildi. Mən cümə namazında heç zaman ad çəkməməyə çalışıram, amma ad çəkildiyinə görə mən də buna məcburam. Mən xüsusi olaraq cənab Haşimi Rəfsəncaninin və cənab Natiq Nurinin adlarını çəkməyi lazım bilirəm. Əlbəttə, heç kim bu cənabları maliyyə fəsadında ittiham etmədi. Qohum və yaxınlar haqda kimin nə iddiası varsa, qanuni yollarla sübut olunmalıdır və sübut olunmadan bunları kütləvi informasiya vasitələrinə çıxarmaq olmaz. Əgər nəsə isbat olunsa, insanlar arasında fərq yoxdur. Lakin isbat olunmadan bunları söyləmək və qəti şəkildə iddia etmək düzgün deyil. Belə sözlər deyiləndə cəmiyyətdə yanlış təsəvvürlər

yaranır, gənclər ayrı cür düşünür və ayrı cür anlayırlar.

Cənab Haşimini hamı tanıyır. Mənim onunla tanışlığım inqilabdan sonraya və yüksək vəzifələrdə çalışdığı zamana aid deyil. Mən 1957-ci ildən – yəni 52 il öncədən onu yaxından tanıyıram. Cənab Haşimi mübarizələr dövründən hərəkatın ən mühüm fiqurlarından olmuşdur. O, inqilabdan öncəki dövrün ciddi və fəal mübarizlərindən idi. İnqilabın qələbəsindən sonra imamın kənarında və İslam Respublikasının ən təsirli şəxsiyyətlərindən oldu; imamın vəfatından sonra da bu günə qədər rəhbərin kənarında olmuşdur.

Bu insan dəfələrlə şəhidliyin bir addımlığına qədər getmişdir. İnqilabdan öncə öz sərvətini inqilab üçün xərcləyir və mübarizlərə verirdi. Gənclərin bunları bilməsi yaxşıdır. İnqilabdan sonra onun çoxlu vəzifələri olmuşdur: səkkiz il prezident olmuşdur, ondan öncə parlamentə rəhbərlik etmişdir, sonra da digər vəzifələrdə çalışmışdır. Biz bu müddət ərzində onun

inqilabdan özü üçün nəsə topladığını görməmişik. Bunlar həqiqətdir. Bunları bilmək lazımdır. O, ən həssas dönəmlərdə inqilabın və quruluşun xidmətində durmuşdur.

Mənim bir çox məsələlərdə cənab Haşimi ilə fikir ayrılığım var; bu da təbiidir. Lakin xalq şübhəyə düşüb ayrı cür fikirləşməsin. Onunla cənab prezident arasında 2005-ci ilin prezident seçkilərindən bu günə qədər fikir ayrılığı olmuşdur, indi də var; həm xarici siyasətdə fikir ayrılıqları var, həm ictimai ədalətin icrası sahəsində, həm də bəzi mədəni məsələlərdə. Və cənab prezidentin fikri mənim fikrimə daha yaxındır.

Cənab Natiq Nuri də həmçinin. Cənab Natiq Nuri inqilaba xidmət göstərmiş şəxsiyyətlərdəndir. O həm çox xidmət göstərmişdir, həm də onun bu quruluşa və inqilaba sevgisində heç bir şübhə yoxdur.

Canlı teledebatlar yaxşıdır, lakin bu nöqsanlar aradan qaldırılmalıdır. Mən həmin vaxt – yəni debatdan sonra bunları cənab

prezidentə də dedim, çünki onun əməl edəcəyini bilirdim.

Maliyyə fəsadı ilə mübarizə məsələsində quruluşun mövqeyi aydındır; ictimai ədalətə aid məsələlərdə quruluşun mövqeyi aydındır. Fəsad harada olursa-olsun, onunla mübarizə aparmaq lazımdır. Mənim demək istədiyim budur: Biz iddia etmirik ki, bizim quruluşumuzda maliyyə və iqtisadi fəsad yoxdur. Əgər olmasaydı, mən bir neçə il öncə üç hakimiyyət orqanının möhtərəm başçılarına müraciətlə səkkizmaddəlik məktubu yazmazdım və onun üzərində bu qədər təkid göstərməzdim. İqtisadi fəsad var, lakin mən demək istəyirəm ki, İslam Respublikası quruluşu bu gün dünyanın ən sağlam siyasi və ictimai quruluşlarından biridir. Bizim filan sionist mənbəyə istinadla quruluşu və ölkəni fəsadda ittiham etməyimiz əsla düzgün deyil; şəxsiyyətləri və məmurları dəlilsiz olaraq fəsad işində sual altına salmağımız da düzgün deyil. Maliyyə fəsadı İslam quruluşunda mühüm məsələlərdən biridir və onunla ciddi

mübarizə aparmaq lazımdır. Həm icraçı hakimiyyətdə, həm məhkəmə hakimiyyətində, həm də qanunverici hakimiyyətdə hamı bununla mübarizə aparmağa borcludur. Əgər mübarizə aparılmasa, qarşısı alınmasa, genişlənəcək. Necə ki, dünyanın çoxlu ölkələri - maliyyə fəsadı, çirkli pulların yuyulması və bu kimi məsələlərlə mübarizədən dəm vuran bu Qərb ölkələri boğaza qədər fəsada batmışlar. Bu günlərdə İngiltərə hökumətinin və parlamentinin hadisələrini eşitdiniz və bütün dünya bildi. Bu, sözügedən fəsadın bir hissəsidir, əslində isə bunlardan da çoxdur.

## Təhdidlər

- **Xalqın parçalanması fikri**

Bizim bir qrupun, məsələn 24 milyonun bir tərəfdə, 14 milyonun da başqa bir tərəfdə durduğunu düşünməyimiz mənim fikrimcə, çox böyük bir səvhdir. Məsələ belə deyil; hamı bir tərəfdə durur. Seçilmiş prezidentə səs verənlər inqilaba, ölkəyə və quruluşa ona

səs verməyənlər qədər sadiqdirlər. Xalqın müxtəlif qrupları bu ölkənin övladlarıdır, bu xalqın övladlarıdır. Müxtəlif namizədlərə səs verən iki toplumu bir-birinə düşmən fərz etməyimiz səhvdir. Xeyr, bir məsələdə bunların fikirləri fərqli olmuşdur, lakin əsas məsələ olan quruluşa inamda və İslam Respublikasını dəstəkləməkdə hamı yekdildir. Biz bu seçkilərin 40 milyona yaxın səsinə baxmalıyıq. Mühüm olan budur. Mən düşünürəm ki, hamımız bunu qorumağa borcluyuq.

**2. Seçkilərdən sonra demokratik şəraiti düşmənçiliyə çevirmək**

Hamınız düşmənlik yaratmaqla mübarizə aparın. Bu, bir namizədə, bir seçki qərargahına və bir qrupa məxsus deyil. Ədavətlə, düşmənçiliklə və kin-küdurətlə mübarizə aparmaq hamının borcudur. Burada qeyd olunduğu kimi, kimlərsə seçkilərdə müxtəlif prosedurlara dair nöqsan və etirazlar qeyd edə bilərlər. Bunun qanuni yolları vardır və mütləq araşdırılmalıdır.

Cənablar bəzi nümunələri qeyd etdilər. Mən Ölkə nazirliyində və həmçinin Nəzarət şurasında çalışan şəxslərdən istəyirəm ki, bu nümunələri dəqiq araşdırsınlar. Əgər bəzi nöqsanlar hansısa qutuların yenidən sayılmasını tələb etsə, eybi yoxdur. İndi bir nümunəni cənablar dedilər; o şəxs deyib ki, filan namizədin səsi bu qədərdir, sayanda isə başqa rəqəm elan olunub. Çox gözəl, eybi yoxdur, nöqsanlı qutuları, yaxud təsadüfi şəkildə bəzi qutuları yenidən saysınlar, namizədlərin nümayəndələri də iştirak etsinlər və hamı üçün tam inam yaransın.

Sizin hamınız yüksək vəzifələrdə çalışırsınız, çalışmısınız və mənim adətimi bilirsiniz. Mənim özüm bütün seçkilər kimi bu seçkilərdə də ölkə məmurlarına - Ölkə nazirliyinə və Nəzarət şurasına etimad etdim. Bilirsiniz ki, bəzi məsələlərdə məmurların fikir ayrılığı var, lakin mən tanıdığım və iş üsulunu bildiyim məmura etimad edirəm. Bu dəfə də belədir. Lakin mənim bu etimadım səbəb olmur ki, kimlər üçünsə yaranmış şübhə araşdırılmasın və həqiqət aşkara

çıxmasın. Xeyr, şübhələri ortadan qaldırın, lakin hər şeydən əhəmiyyətli olan budur ki, hamınız milli birliyi qorumağa çalışın; hər kəs öz vəzifəsinə uyğun şəkildə.

### 3. Bəzi şəxslərin sabitliyi və milli birliyi pozmaq cəhdi

Bu məsələlərdə hamınız uğur qazandınız, hamınız qalib oldunuz; çünki sevdiyiniz quruluşu gücləndirə bildiniz. Bütün xalq qalibdir; çünki bir əzəmət və izzət nümayiş etdirdi. Bəziləri bunu istəmirlər və təbii ki, pozuculuq edirlər, gərginlik yaradırlar, bundan ona söz aparırlar, ondan buna; çox zaman da yalan. Mənə müxtəlif yerlərdən sözlər çatır. Görürəm ki, bəzən nə o tərəfin bu tərəf haqda dedikləri həqiqətə uyğundur, nə də bu tərəfin o tərəf haqda dedikləri. Bəllidir ki, ortada birliyin yaranmasını istəməyənlər var. Bu ən yaxşısıdır, pisi də sizin gördüyünüz pozucu işlərdir. Bu işlərin qarşısında dayanıb mövqe bildirməlidirlər. Hamı deməlidir.

Aparılan bu təxribatlar, görülən bu çirkin işlər, bəzən törədilən cinayətlər heç bir tərəfə məxsus deyil; xalqa məxsus deyil, namizədlərə məxsus deyil, təxribatçılara məxsusdur, iğtişaşçılara məxsusdur. Kimsə bu işlərin filan namizədin tərəfdarlarının törətdiyini düşünməsin. Xeyr, bunlar müsəlmanların arasında məzhəb ixtilafları salan qüvvələr kimidirlər. Biz dəfələrlə demişik ki, bunlar nə sünnidirlər, nə şiə; şiəni sünninin, sünnini də şiənin əleyhinə təhrik edirlər. Bizim böyük cəmiyyətimizin birliyi də belədir. Bir tərəfi o biri tərəfin əleyhinə təhrik edən, bir cinahın tərəfdarı kimi çıxış edib bəzi işlər görən şəxslər nə bu tərəfdəndirlər, nə o tərəfdən. Bunlar quruluşla, ölkənin sabitliyi ilə müxalif, gərginliyin və iğtişaşın tərəfdarı olan və sabitliyi pozmağa cəhd edən şəxslərdir.

Hakimiyyətə kim gəlsəydi və seçkilərin nəticəsi bundan fərqli olsaydı da, mən qəti şəkildə deyə bilərəm ki, bu hadisələr yenə baş verəcəkdi. Çünki onlar ölkədə sabitliyi pozmaq istəyirlər, ölkənin təhlükəsizliyini və

dincliyini hədəf seçmişlər, onu məhv etmək istəyirlər. Heç kəs bu gərginliklərə və iğtişaşlara kömək etməməli, hamı onun qarşısında açıq mövqe bildirməlidir.

### 4. Siyasi şəxsiyyətlərin ifratçılığının xalq arasında çox həssas nəticələri

Xalqın düşüncəsində hər növ aparıcılığı olan şəxslər – bəziləri bizdən söz eşidən siyasətçilər, partiya liderləri və siyasi cərəyanların rejissorları öz rəftarlarına və sözlərinə çox diqqət yetirməlidirlər. Əgər onlar bir az ifrata varsalar, bu ifratçılığın əhatəsi xalq arasında çox həssas və təhlükəli hadisələrə səbəb olacaq, sonra isə bəlkə özləri də bunu idarə edə bilməyəcəklər. Biz nümunələrini görmüşük. Cəmiyyətdə ifratçılıq yarandıqda hər bir ifratçı hərəkət digərlərinin ifratçılığına səbəb olur. Əgər siyasi elitanın nümayəndələri qanunu ayaq altına atsalar, yaxud qaş düzəldən yerdə vurub göz çıxarsalar, o zaman istəsələr də, istəməsələr də tökülən qanlar, kobudluqlar və hərc-mərcliklər üçün məsuliyyət

daşıyacaqlar. Mən bu cənabların, bu qədim dost və qardaşların hamısına tövsiyə edirəm ki, özünüzə hakim olun, təmkinli olun, düşmənin əllərini, bu gün yavaş-yavaş üzlərindən diplomatiya niqabını götürüb həqiqi simalarını göstərən və pusquda dayanmış ac canavarları görün, onları yaddan çıxarmayın.

# Tövsiyələr

## Seçilmilş prezidenti dəstəkələmək və ona kömək etmək

Güman ki, düşmənlər bədxah təhriklərlə bu hadisənin sevincini xalqdan almağa çalışacaqlar. Bütün xalqa, xüsusən də bu möhtəşəm hadisənin ən aktiv səbəbkarlarından olan əziz gənclərə tövsiyə edirəm ki, çox sayıq olsunlar.

Seçkilərin ertəsi günü həmişə mehribanlıq və dözüm günü olmalı, istər seçilmiş namizədin, istərsə də digər möhtərəm namizədlərin tərəfdarları hər bir təhrikedici və şübhəli söz və rəftardan çəkinməlidirlər.

Seçilmiş möhtərəm prezident bütün İran xalqının prezidentidir və hamı, o cümlədən dünənki rəqiblər onu dəstəkləməli, ona kömək etməlidirlər. Şübhəsiz, bu da Allahın bir imtahanıdır. Bu imtahandan uğurlu çıxmaq Allah-Taalanın mərhəmətini ərməğan edər.

## Milli birliyi qorumaq, parçalanmağın və düşmənliyin qarşısını almaq

Biz seçkilərin parçalanma amili olamamasına çalışmalı və bunu diqqətdə saxlamalıyıq. Mənim əsas sözüm budur və düşünürəm ki, hamımız bunu qorumağa borcluyuq; yəni İslam quruluşunu dəstəkləməyə dair bu milli birliyə əhəmiyyətsiz yanaşmayaq. Bu çox əhəmiyyətli məsələdir. Bu gün İslam quruluşu göstərir ki, onda həqiqi demokratiya hakimdir. Xalq müxtəlif namizədlərlə görüşlərdə iştirak edir, onların çıxışlarını dinləyir və təxminən 10-15 gün küçələrdə fəallıq göstərir. Bu mənim fikrimcə, çox mühüm məsələdir. Biz xalqın

çoxlu gecələrdə Tehranın və digər şəhərlərin küçələrinə toplaşması, bəzilərinin bu, bəzilərinin isə digər namizədi dəstəkləyib şüar verməsi, amma aralarında heç bir iğtişaşın yaranmaması ilə fəxt etməliyik. Bu çox mühüm məsələdir. Bizim xalqımız budur: üslub fərqləri var, müxtəlif namizədlərə qarşı müxtəlif fikirlər var, amma bir-biri ilə həmkarlıq edirlər. Cənab Mühəndis Musəvi mənə danışırdı ki, bir xiyabanda maşınla gedərkən başqa bir maşın onunla yanaşı hərəkət edir. Onlar gülə-gülə cənab Musəvinin əleyhinə danışmağa və şüar verməyə başlayırlar. Cənab Musəvi deyir ki, mən də gülüb onlara əl etdim və keçdim. Bu çox yaxşı haldır. Bu vəziyyət seçkilərdən sonra ədavətə və qarşıdurmaya çevrilməməlidir. Bəzi qüvvələr cəmiyyətdə bunu reallaşdırmaq istəyirlər. Bu düzgün deyil.

## Gərginliyə kömək etməmək

Heç kəs bu gərginliyə və iğtişaşa kömək etməməli, hamı onun qarşısında açıq mövqe

bildirməlidir. Necə ki, sizin həqiqi mövqeyiniz də məhz belədir. Gərək açıq mövqe bildirib desinlər ki, bunu istəmirlər. Eyni zamanda gərginlik yaradan heç bir iş görməsinlər; yəni bir-birini qəzəbləndirməsinlər.

## Səbir və dözüm və onun aparıcı şəxsiyyətlərin və xalqın arasında təbliği

Həm çoxluğun səsini qazanmış tərəf diqqətli olmalı, rəftar və hərəkətlərinə fikir verməlidir, həm də çoxluğun səsini qazanmayan tərəf. Hamı səbirli olmalıdır. İslam qaynaqlarında işlədilmiş "hilm" sözünün mənası dözümlülük və dözüm bacarığıdır. Hamıda dözüm bacarığı olmalı və dözə bilməlidir. Qələbəyə dözmək də asan deyil, məğlubiyyətə dözmək də. Dözmək, səbirli olmaq, qələbə və məğlubiyyət zamanı təmkinli olmaq bacarığı insani dəyərlərdəndir. Biz bunu həm aparıcı şəxsiyyətlər, həm də bütün xalq arasında təbliğ etməliyik.

### Açıq mövqe bildirmək

Heç kəs bu gərginliyə və iğtişaşa kömək etməməli, hamı onun qarşısında açıq mövqe bildirməlidir. Necə ki, sizin həqiqi mövqeyiniz də məhz belədir. Gərək açıq mövqe bildirib desinlər ki, bunu istəmirlər.

## Düşmənin təxribatları

### Seçkiləri quruluşun tərəfdarları ilə əleyhdarları arasında savaş kimi göstərməyə çalışmaq

Bir neçə Qərb ölkəsinin indiyə qədər diplomatik komplimentlərlə danışan məşhur diplomatları üzlərindən niqabı götürüb həqiqi simalarını göstərirlər: "Onların sizə qarşı ədavəti ağızlarından çıxan sözlərdən bəlli olur, ürəklərində gizlətdikləri (düşmənçilik) isə daha böyükdür". Onlar İslam quruluşuna qarşı düşmənçiliklərini göstərirlər. Hamısından daha xəbis olan da İngiltərə hökumətidir.

Mən son iki-üç həftədə Amerikanın və bir neçə Avropa ölkəsinin dövlət rəsmilərinin

söz və işlərini izlədim. Seçkilərə yaxın həftələrdə, seçkilər günü, seçkilərdən sonrakı gecə və seçkilərdən iki-üç gün sonra onların dəyişkən və fərqli vəziyyətləri oldu. Seçkilərin başlanmasından öncə onların media orqanları və dövlət rəsmiləri xalqın iştirakını zəiflətmək üçün seçkilərin özünə qarşı şübhə yaradırdılar.

Düşmənlər əksəri xəbis və rəzil sionistlərə məxsus olan müxtəlif informasiya şəbəkələrində belə göstərməyə çalışırlar ki, quruluşun tərəfdarları ilə müxalifləri arasında savaş gedir. Xeyr, belə deyil. Onlar qələt edib bu sözü deyirlər. Bu, həqiqət deyil.

## Seçkiləri şübhə altına salmaq və xalqın quruluşa inamını qırmaq

Bizim bəzi düşmənlərimiz quruluşun bu mütləq qələbəsini şübhəli bir qələbəyə və hətta bəziləri milli bir məğlubiyyətə çevirməyə çalışdılar, sizin sevincinizi yox etmək və dünyanın ən yüksək faizli seçkisinin sizin adınıza yazılmasına mane olmaq istədilər.

Onlar inamı qırmaq, bununla xalqın fəallığını və onun ardınca İslam Respublikasının legitimliyini sarsıtmaq istəyirlər. Bunun zərəri bank və avtobus yandırmaqdan daha çoxdur. Bu, başqa heç bir ziyanla müqayisəolunası deyil. Xalq belə bir möhtəşəm tədbirdə belə həvəslə iştirak edir, sonra ona deyilir ki, siz quruluşa inanmaqda səhv etdiniz, quruluş etimada layiq deyildi. Düşmən bunu istəyir.

Bu kampaniya seçkilərdən öncədən başladı; bundan iki-üç ay qabaqdan. Mən fərvərdin ayının 1-də (martın 21-də) Məşhəddə dedim ki, daim qulaqlara pıçıldayır və təkrar edirlər ki, seçkilər saxtalaşdırılacaq. Onlar şəraiti hazırlamaq istəyirdilər. Mən o zaman ölkə daxilində olan yaxşı dostlarımıza xəbərdarlıq etdim və dedim ki, düşmənin xalqın beyninə yeritmək istədiyi bu sözü deməyin. Xalq İslam Respublikası quruluşuna inanır. Bu inam asan əldə olunmayıb. İslam Respublikası quruluşu otuz ildir məmurları, əməlləri və çoxlu zəhmətləri ilə xalqın qəlbində bu inamı

gücləndirə bilmişdir. Düşmən bu inamı alıb xalqı zəiflətmək istəyir.

## Bəzi namizədlərin etirazını görüb təşəbbüsü ələ almağa çalışmaq

Bəzi namizədlərin etirazını gördükdə gözlənilmədən onlar üçün fürsət yarandığını düşündülər və onu fövtə verməyib təşəbbüsü ələ almağa çalışdılar. Şənbə və bazar günlərindən sözləri dəyişildi, gözləri namizədlərin dəvəti ilə küçələrdə keçirilən bəzi toplantılara düşdükdə həvəsləndilər, yavaş-yavaş niqabları kənara çəkildi və həqiqi simaları görünməyə başladı. Bir neçə Avropa ölkəsinin və Amerikanın dövlət başçıları və bir neçə Xarici işlər naziri iç üzlərini göstərən sözlər danışdılar. Amerika prezidentinin belə dediyi söyləndi: "Biz xalqın küçələrə çıxdığı belə bir günü gözləyirdik". Bir tərəfdən məktub yazıb əlaqələri bərpa etmək istədiklərini deyir və İslam Respublikasına hörmət bildirirlər, bir tərəfdən də bu sözləri danışırlar. Biz hansına inanaq?

Xarici qüvvələrin ölkə daxilindəki ünsürləri də işə girişdilər və küçə iğtişaşları başlandı; iğtişaş törətmək, yandırmaq, ümumi yerləri odlamaq, xalqın işlədiyi yerlərdə təhlükəsizliyi pozmaq, dükanların şüşələrini sındırmaq, bəzi mağazaların mallarını oğurlamaq, xalqın can və mal təhlükəsizliyini pozmaq. Bunun xalqa və namizədlərin tərəfdarlarına aidiyyəti yoxdur. Bunlar bədxah və muzdurlardır. Bu işlər Qərbin və sionizmin casus şəbəkələrinin muzdurlarının işidir. Daxildə bəziləri tərəfindən naşıcasına görülən bu iş onları tamahlandırdı. Elə bildilər ki, İran da Gürcüstandır. Bir neçə il öncə Amerika sionistlərindən olan bir biznesmen KİV-də yayılan iddiasına görə on milyon dollar pul xərcləyib Gürcüstanda məxməri inqilab etdi, bir hökuməti devirib başqasını gətirdi. Axmaqlar elə bildilər ki, İslam Respublikası, İran və bu əzəmətli xalq da ora kimidir. İranı hara ilə müqayisə edirsiniz?! Bizim düşmənlərimizin problemi budur ki, İran xalqını hələ də tanımırlar.

# Xatırlatmalar

## İki cinah və iki qrup bir-birini qəzəbləndirməsin!

İki cinah və iki qrup bir-birini qəzəbləndirməsin; nə qələbə çalan namizədi sevənlər qarşı tərəfi qəzəbləndirib yaralamasınlar, nə də səs qazanmayan namizədi sevənlər. Xeyr, sizin hamınızın müştərək bir cəhətiniz var və o da bu seçkilərdə və İslam quruluşunu müdafiə işində fəal iştirak etmənizdən ibarətdir. Dövrün imamını razı salan əsas məsələ budur.

## Qırx milyonluq səsi gözdən salmamaq

Bəzi xarici kanallar növbəyə durmuş insanları göstərdi. Bu, ölkə üçün fəxrdir. Biz bunu gözdən salmamalıyıq. Bu, xalqa məxsusdur. Hər iki tərəf – yəni həm seçilmiş namizədə səs verənlər, həm də başqa bir namizədə səs vermiş təxminən 14 milyon

insan bu böyük qəhrəmanlığı birgə yaratdılar.

## İmamın son vəsiyyətlərini yada salmaq

Mən bu qardaşlara deyirəm ki, Allah-Taala qarşısındakı məsuliyyət barədə fikirləşin; Allah qarşısında məsuliyyət daşıyırsınız, sizdən soruşacaqlar. İmamın son vəsiyyətlərini xatırlayın; qanun son sözdür. Qanunu son söz bilin. Ümumiyyətlə seçkilər nə üçündür? Seçkilər onun üçündür ki, bütün ixtilaflar seçki qutularında həll olunsun. Xalqın nə istədiyi və nəyi istəmədiyi seçki qutularında bəlli olmalıdır, küçələrdə yox.

## Düşmənin əllərini görmək

Mən bu cənabların, bu qədim dost və qardaşların hamısına tövsiyə edirəm ki, özünüzə hakim olun, təmkinli olun, düşmənin əllərini, bu gün yavaş-yavaş diplomatiya niqabını da üzlərindən götürüb həqiqi simalarını göstərən və pusquda dayanmış ac canavarları görün. Bunları yaddan çıxarmayın.

# Xəbərdarlıqlar

## 1. Səhvin qarşısını almaq üçün sayıqlıq və ehtiyat

Mənim müraciətim siyasi adamlara, namizədlərə, partiya və cinah rəhbərlərinədir. Mən bu ağalara demək istəyirəm ki, bu gün ölkə üçün həssas və tarixi bir gündür. Dünyanın vəziyyətinə baxın. Orta Şərqin vəziyyətinə baxın. Dünyanın iqtisadi vəziyyətinə baxın. Bizim İraq, Əfqanıstan və Pakistan kimi qonşu ölkələrimizin vəziyyətinə baxın. Biz tarixin həssas bir nöqtəsində yerləşmişik. Bizim hamımızın vəzifəmiz budur ki, bu tarixi mərhələdə sayıq, diqqətli və ehtiyatlı olub səhvə yol verməyək.

## 2. Küçə yürüşlərini dayandırmaq

Ümumiyyətlə seçkilər nə üçündür? Seçkilər onun üçündür ki, bütün ixtilaflar seçki qutularında həll olunsun. Xalqın nə istədiyi və nəyi istəmədiyi seçki qutularında

bəlli olmalıdır, küçələrdə yox. Əgər hər bir seçkidən sonra uduzanlar küçələrdə düşərgə qursalar, tərəfdarlarını küçələrə çağırsalar, sonra udanlar da onlara cavab olaraq düşərgə qursalar və hamını küçəyə çıxarsalar, onda seçkilər nə üçün keçirilir? Xalqın təqsiri nədir?! Küçə xalqın iş-güc yeridir, get-gəl etdiyi yerdir, yaşadığı yerdir. Bu xalq nə günah etmişdir ki, biz öz tərəfdarlarımızı onlara göstərməyə çalışaq; o tərəfdə bir cür, bu tərəfdə bir cür?! Zərbə vurmaqdan ötrü aramıza girən terrorçu şəxs üçün siyasi məsələ mühüm deyil. Onun üçün yürüş edən, yaxud mitinq keçirən bu xalqın arasında gizlənməkdən daha yaxşı nə ola bilər?! Əgər bu toplantılar ona imkan yaradırsa, bunun məsuliyyəti kimin üzərinə düşür? Bu hadisələrdə adi camaatdan və Bəsicdən ödürülən bu bir neçə nəfərin cavabını kim verməlidir? Küçədə qarışıqlıqdan istifadə edirlər, Bəsici terror edirlər, polisi terror edirlər; hər halda bunlar bir reaksiyaya səbəb olacaq və bu reaksiya emosional olacaq. Bu reaksiyalar barədə kim

düşünməlidir? Bəzi hadisələrə görə insanın bağrı qan olur. Universitet məhəlləsinə gedib gənc tələbələrə, özü də çaxnaşma yaradan yox, mömin və hizbullahçı tələbələrə hücum edir, eyni zamanda rəhbərin lehinə şüar verirlər. Bu hadisələrə görə insanın bağrı qan olur. Seçkilərdən sonra küçədə güc sınamaq düzgün deyil. Bu, seçkilərin və demokratiyanın özünə ziddir.

Mən hamıdan bu işə son qoymalarını istəyirəm. Bu düzgün üsul deyil. Əgər son qoymasalar, o zaman onun nəticələrinin və hərc-mərcliyinin məsuliyyəti onların üzərinə düşəcək.

Bəzi qüvvələr elə bilirlər ki, küçələrə çıxmaqla quruluşun əleyhinə təzyiq rıçaqı düzəldib öz istəklərini qəbul etdirəcəklər. Xeyr, bu da səhvdir. Əvvəla, təzyiq altında qanunsuz tələblərlə razılaşmağın özü diktaturanın başlanmasıdır. Bu, yanlış və səhv proqnozdur. Əgər onun acı nəticələri olsa, birbaşa səhnə arxasında duran komandirlərə yönələcək. Əgər lazım olsa, xalq onları da tanıyacaq.

**Çıxış yolu: Qanuni yolla araşdırmaq**

Nəzarət şurasına təkidlə tapşırılıb ki, bu məktubu diqqətlə araşdırsınlar.

Sizin xislətiniz belə şəxslərlə fərqlidir; işləri təmkinlə və sakit şəkildə davam etdirməniz lazımdır.

Allahın köməyi ilə seçkilər güclü, düzgün və çox sabit şəkildə keçdi. Siz də nəzərdə tutduğunuz məsələləri qanuni yolla araşdırın.

Burada qeyd olunduğu kimi, kimlərsə seçkilərdə müxtəlif prosedurlara dair nöqsan və etirazlar qeyd edə bilərlər. Bunun qanuni yolları vardır. Bunlar mütləq araşdırılmalıdır. Cənablar bəzi nümunələri qeyd etdilər. Mən Ölkə nazirliyində və həmçinin Nəzarət şurasında çalışan şəxslərdən istəyirəm ki, bu nümunələri dəqiq araşdırsınlar. Əgər bəzi nöqsanlar hansısa qutuların yenidən sayılmasını tələb etsə, eybi yoxdur. İndi bir nümunəni cənablar dedilər; o şəxs deyib ki, filan namizədin səsi bu qədərdir, sayanda isə başqa rəqəm elan olunub. Çox gözəl, eybi

yoxdur, nöqsanlı qutuları, yaxud təsadüfi şəkildə bəzi qutuları yenidən saysınlar. Namizədlərin nümayəndələri də iştirak etsinlər və hamı üçün tam inam yaransın.

Sizin hamınız yüksək vəzifələrdə çalışırsınız, çalışmısınız və mənim adətimi bilirsiniz. Mənim özüm bütün seçkilər kimi bu seçkilərdə də ölkə məmurlarına - Ölkə nazirliyinə və Nəzarət şurasına etimad etdim. Bilirsiniz ki, bəzi məsələlərdə məmurların fikir ayrılığı var, lakin mən tanıdığım və iş üsulunu bildiyim məmura etimad edirəm. Bu dəfə də belədir. Lakin mənim bu etimadım səbəb olmur ki, kimlər üçünsə yaranmış şübhə araşdırılmasın və həqiqət aşkara çıxmasın. Xeyr, şübhələri ortadan qaldırın, lakin hər şeydən əhəmiyyətli olan budur ki, hamınız milli birliyi qorumağa çalışın; hər kəs öz vəzifəsinə uyğun şəkildə.

İslam Respublikası xalqın səsinə xəyanət etməz. Bizim ölkəmizdə seçki qanunları saxtakarlığa imkan vermir. Seçki işlərində çalışan və bu məsələlərdən xəbərdar olan hər bir kəs bunu təsdiq edər; özü də on bir

milyon səs həddində. İki tərəf arasında yüz min, beş yüz min, bir milyon səs fərqi olsa, hansısa yolla saxtakarlıq edilməsi və səslərin yerdəyişməsi ehtimal oluna bilər. Bəs on bir milyonu necə saxtalaşdırmaq olar?! Eyni zamanda mən bunu dedim və möhtərəm Nəzarət şurası da qəbul edir ki, kimin şübhəsi varsa və sənəd göstərirsə, mütləq araşdırmaq lazımdır; sözsüz ki, qanuni yollarla. Yalnız qanuni yollarla araşdırma aparılmalıdır. Mən qanunsuz bidətlərə təslim olmayacağam. Əgər bu gün qanuni çərçivələr sındırılsa, gələcəkdə heç bir seçki təhlükəsiz olmayacaq. Hər halda, hər bir seçkidə bəziləri udur, bəziləri isə uduzur. Belə olsa, daha heç bir seçki mötəbər sayılmayacaq. Odur ki, hər şeylə məşğul olsunlar, işlər görülsün, qanuni prosedurlar həyata keçirilsin. Əgər həqiqətən şübhə varsa, qanuni yollarla araşdırılsın. Bu sahədə qanunlarda heç bir nöqsan yoxdur. Necə ki, namizədlərin nəzarət və şikayət hüququ təmin olundu və uyğun məsələlər də araşdırılacaq. Mən möhtərəm Nəzarət

şurasından istədim ki, əgər haradasa seçki qutularını yenidən saymaq lazım olsa, namizədlərin nümayəndələrinin iştirakı ilə bu işi görsünlər. Özləri orada olsunlar, saysınlar, qeyd etsinlər və imzalasınlar.

Qanun son sözdür; onu son söz bilin.

Bəzi qüvvələr elə bilirlər ki, küçələrə çıxmaqla quruluşun əleyhinə təzyiq rıçaqı düzəldib öz istəklərini qəbul etdirəcəklər. Xeyr, bu da səhvdir. Əvvəla, təzyiq altında qanunsuz tələblərlə razılaşmağın özü diktaturanın başlanmasıdır. Bu, yanlış və səhv proqnozdur. Əgər onun acı nəticələri olsa, birbaşa səhnə arxasında duran komandirlərə yönələcək. Əgər lazım olsa, xalq onları da tanıyacaq.

Mən bu dostların, bu qardaşların hamısından istəyirəm ki, qardaş olsunlar, anlaşsınlar, qanuna riayət etsinlər. Qanun yolu açıqdır, məhəbbət və səmimiyyət yolu açıqdır. Bu yolla gedin. Ümidvaram Allah-Taala bu yolla getmək üçün hamıya kömək edəcək. Bəli, hamı ölkənin inkişafını istəyir. Bu qardaşlar qırx milyonluq qələbə

bayramını qeyd etsinlər və düşmənin bu bayramı pozmasına qoymasınlar. Düşmən bunu pozmaq istəyir. Əgər başqa yol seçsələr, onda mən yenə gələcək və xalqla bundan da açıq danışacağam.